RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 98 (8414) ÇƏRŞƏNBƏ, 20 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycan sosial təşəbbüslərdə də liderlik göstərir

## "Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 5 mart tarixli 785 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 5 mart tarixli 785 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 3, maddə 213; 2014, № 6, maddə 644; 2016, № 8, maddə 1384, № 9, maddə 1464) 1-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Əli Əhmədov - Azərbaycan Respublikası Baş Nazirinin müavini

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri
Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini
Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavini
Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin müavini
Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini
Azərbaycan Respublikası İqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini
Azərbaycan Respublikası Təhsil nazirinin müavini
Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini
Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini
Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri
"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin vitse-prezidenti
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin birinci müavini
Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2020-ci il*

## İlham ƏLİYEV: "DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlət başçısına və birinci xanıma mərkəzdə yaradılan şərait barədə məlumat verdi.**

Bildirildi ki, Heydər Əliyev prospektində yerləşən 3 saylı DOST mərkəzi paytaxtın Nizami, Suraxanı və Sabunçu rayonlarının sakinlərinə xidmət göstərəcək. Mərkəzdə əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, övladlığa götürmə, əlillik, əmək və məşğulluq, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza Komissiyasının xidmətləri göstəriləcək. Burada 130 nəfərdən çox işçi və "Könüllü DOST" proqramı üzrə 50 könüllü çalışacaq. Mərkəz gün ərzində 500, il ərzində isə ümumilikdə 150 mindən artıq vətəndaşı qəbul edə biləcək.

Dövlət başçısına və birinci xanıma 2020-ci ilin əvvəlindən indiyədək sosial sahədə əldə olunan uğurlar, pandemiya ilə əlaqədar məşğulluğa və sosial rifaha dəstək tədbirləri, elektron sistemlər üzərindən göstərilən proaktiv xidmətlər, şəhid ailələrinin və müharibə əlillərinin mənzil və avtomobil təminatı, günərzi qayğı, icma əsaslı sosial reabilitasiya və yardım mərkəzləri, habelə DOST agentliyinin regional və beynəlxalq səviyyədə əldə etdiyi nailiyyətlər barədə də məlumatlar verildi. Ölkəmizdə əlilliyi olan şəxslər tərəfindən hazırlanan əl işləri nümayiş etdirildi.



Qeyd edək ki, 2019-2025-ci illərdə 31 DOST mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub. Onlardan 5-i Bakıda, 26-sı isə regionlarda olacaq.

Ardı 2-ci səh.

## Prezident söz verir və əməl edir

### Bu gün Azərbaycanda sosial dəstəyə ehtiyacı olan heç kəs dövlətin diqqətindən kənarda qalmır

**Prezident İlham Əliyevin ölkə iqtisadiyyatının güclü sosial siyasətlə tamamlanması və iqtisadi dividendlərin, ilk növbədə, vətəndaş amilinə xidmət etməsi üçün sosial sahəyə yönəldilməsi prinsipi ölkənin sosial dövlət modelinin daha xarakterik çalarlarla zənginləşməsinə və əməli müstəvidə uğurlu təsdiqini tapmasına şərait yaradır. Bunun nəticəsi olaraq sosial təminat sisteminin daha çox humanist yanaşmalar üzərində qurulduğu, həssas əhali qrupları ilə bağlı qanunvericiliyin humanistləşdirilməsi diqqəti cəlb edir.**

Öncə pensiya təminatı sahəsinə nəzər salaq. Sosial təminat sisteminin əsas komponentlərindən olan pensiya təminatı ilə bağlı dünya təcrübəsinə baxdıqda bir çox ölkələrdə bu sahədə sərt sığorta prinsiplərinin mövcud olduğu aydın görünür. Azərbaycan isə sosial sahədə mütərəqqi dünya praktikalarından faydalanmağa önəm verməklə yanaşı, pensiyaçıların istək, maraq və mənafelərini də daim üstün tutur.

Bunun göstəricisi olaraq, 2019-cu ilin əvvəlindən yaşlı əhalinin maraqlarına uyğun olan və əsasında humanist yanaşma dayanan islahat tədbiri gerçəkləşdi. Əmək pensiyası yaşına çatan və fərdi hesabında ən kiçik məbləğdə belə pensiya kapitalı qeydə alınan şəxslərə əmək pensiyası hüququ verildi. Dövlət avtomatik olaraq onlara 25 il sosial sığorta stajı hədiyyə etdi. Həmin 25 illik stajın və 2018-ci ilin 1 iyul tarixinədək qeydə alınan pensiya kapitalının indeksləşdirilməsi aparıldıqdan sonra onlara pensiya təyin olundu.

Ardı 6-cı səh.

## Azərbaycan Prezidenti tövsiyələri ilə deputatlar qarşısında yeni vəzifələr irəli sürmüşdür

### Sahibə QAFAROVA: "Ən mühüm vəzifələrdən biri budur ki, deputatlar seçildikləri dairələrdə fəal iş aparmalı və seçicilərlə daim təmasda olmalıdırlar"

Mayın 19-da Milli Məclisin plenar iclası keçirildi. Milli Məclisin Sədri Sahibə Qafarova parlament Aparatının rəhbəri və digər məsul şəxsləri ilə birlikdə mayın 15-də Bakı, Sumqayıt və Abşeronun seçki dairələrindən seçilmiş deputatların köməkçiləri ilə görüş keçirdiyini bildirdi.

### Deputat köməkçilərinin üzərinə böyük məsuliyyət düşür

"Görüşdə yeni təyin edilmiş köməkçilərin fəaliyyət istiqamətləri və vəzifələri barəsində geniş fikir mübadiləsi aparıldı. Bildiyiniz kimi, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev altıncı çağırış Milli Məclisin birinci iclasında söylədiyi proqram xarakterli nitqində parlamentin fəaliyyətinin yol xəritəsini müəyyən etmişdir. Dövlət başçısı öz tövsiyələri ilə biz deputatların qarşısında yeni vəzifələr irəli sürmüşdür. Ən mühüm vəzifələrdən biri budur ki, deputatlar seçildikləri dairələrdə fəal iş aparmalı, seçicilərlə daim təmasda olmalıdırlar. İnsanları narahat edən məsələlərin aşkara çıxarılması və dövlət orqanları qarşısında qaldırılması deputatlıq fəaliyyətinin ən vacib istiqamətlərindən birini təşkil etməlidir. Deputatın vəzifə və səlahiyyətlərinin dolğun şəkildə həyata keçirilməsində deputat köməkçilərinin üzərinə böyük məsuliyyət düşür. Yəqin mənimlə razılaşarsınız ki, biz köməkçilərimizdən yüksək bilik və bacarıqla yanaşı, təşəbbüskarlıq və fəallıq da gözləyirik", - deyən Sahibə Qafarova bu cür görüşlərin ümumi işin xeyrinə olduğunu və bunları davam etdirməyin vacibliyini diqqətə çatdırdı.

Ardı 3-cü səh.



## Aqrar sahənin inkişafı ərzaq təhlükəsizliyini təmin edir

Hər bir ölkənin inkişafında həyata keçirilən islahatlar mühüm rol oynayır. Prezident İlham Əliyev tərəfindən son 16 ildə aparılan uğurlu iqtisadi islahatlar da ölkəmizin sürətli inkişafını təmin edən başlıca faktordur. Dövlət başçısının bu sahədə gördüyü işlər dünya ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilir. Nüfuzlu beynəlxalq qurumlar Azərbaycanı dünyanın 10 ən islahatçı ölkəsi kimi dəyərləndirir. Bu da dövlət başçısının gördüyü mühüm işlərə verilən yüksək qiymətin göstəricisidir.

Aparılan uğurlu islahatlar sosial-iqtisadi sferanın bütün sahələrini əhatə edir. Məqsəd ölkənin hərtərəfli inkişafına nail olmaqdır. Geniş islahatların tətbiq edildiyi sahələrdən biri aqrar sektordur. Ərzaq təhlükəsizliyi məsələsi ilə bilavasitə bağlı olduğu üçün bu sahənin inkişafı xüsusi əhəmiyyət daşıyır.

Aqrar sektor əhatə etdiyi coğrafiyaya və məşğul əhalinin sayına görə də xüsusi çəkiyə malikdir. Kənd təsərrüfatının inkişafı, bu səbəbdən də əhəmiyyətlidir. Bu sektor, eyni zamanda, sənayenin bir çox sahələri üçün xammal bazası rolu oynayır.

Ardı 6-cı səh.

## İlham Əliyevin qlobal təşəbbüsləri böyük dəstək qazanır

### Azərbaycan pandemiya ilə mübarizə şəraitində dünyada həmrəyliyə mühüm töhfə verir, təcrübəsini bölüşür, ölkələrə yardımlar edir

Dünya ölkələri üçün gözlənilməz bəlaya çevrilən qlobal pandemiya böhranı davam etməkdədir. İlin əvvəlindən başlayaraq bütün ölkələr, ilk növbədə, öz daxili resurslarını səfərbər edərək koronavirusa qarşı mübarizə üçün lazım olan tədbirləri həyata keçirməkdədirlər. Lakin hər bir ölkədə uğurlu nəticələrin əldə edilmədiyi açıq-aydın görünür.

Yalnız pandemiyaya qarşı qabaqlayıcı tədbirlər görən, iqtisadiyyatını deyil, insan sağlamlığını əsas tutan bəzi ölkələrin bu sınaqdan az itki ilə çıxmaqla bağlı mübarizəsində müsbət dinamika müşahidə olunmaqdadır. Azərbaycan da böhrana qarşı ilk qabaqlayıcı addımlar atan ölkələrdəndir. Məhz bu addımlar sayəsində bu günə qədər hökumət vəziyyəti tam nəzarətdə saxlayır.

### Azərbaycan istənilən dövlətlə təcrübəsini bölüşür

Təkcə onu demək kifayətdir ki, bu gün dünyada 150-dən çox ölkə qlobal böhrana qarşı yardım üçün beynəlxalq maliyyə qurumlarına müraciət edib.

Ardı 3-cü səh.

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə güclüyük!*

# Azərbaycan sosial təşəbbüslərdə də liderlik göstərir

## İlham ƏLİYEV: "DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür"

Ümumilikdə DOST mərkəzlərində "bir pəncərə" prinsipi ilə 2,8 milyon insana 132 xidmət göstəriləcək. Ötən il istifadəyə verilən 1 və 2 saylı Bakı DOST mərkəzlərində indiyədək 100 mindən çox şəxsə xidmət göstərilib, vətəndaşların xidmətlərdən məmnunluq səviyyəsi isə 96 faiz təşkil edib. "Könüllü DOST" proqramı üzrə artıq 300-dən çox könüllü, o cümlədən 22 yaşlı şəxs bu mərkəzlərə cəlb edilib.

Azərbaycanda əhalinin sosial-rifah halının yüksəldilməsi, sosial məsələlərin həlli, həssas qrupların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması istiqamətində görülən işlər Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir.



Təsadüfi deyil ki, bu istiqamətdə həyata keçirilən tədbirlər ölkəmizdə etibarlı sosial müdafiə sisteminin formalaşmasına imkan yaradıb. Eyni zamanda son illərdə icra olunan sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir. Bu baxımdan Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin yaradılması mühüm əhəmiyyət kəsb edir. Birinci xanım Mehriban Əliyevanın təşəbbüsü olan DOST layihəsi əmək, məşğulluq, sosial müdafiə, əlillik, reabilitasiya sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu sahələrdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi daşıyır.




Yeni istifadəyə verilən DOST mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verdi.



# Prezident İlham Əliyevin müsahibəsi

Əvvəli 1-ci səh.

**- Cənab Prezident, xoş gördük Sizi.**

- Salam.

**- Azərbaycanda bu gün həyata keçirilən sosial siyasətin tərkib hissələrindən biri də DOST mərkəzləridir. Bu gün yeni DOST mərkəzinin açılışında iştirak etdiniz. Ümumiyyətlə, Siz DOST mərkəzlərinin açılışını necə qiymətləndirirsiniz?**

- Bu, çox gözəl sosial təşəbbüsdür. Bildiyiniz kimi, Azərbaycan bu sahədə də liderlik göstərir və DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür. Artıq üçüncü mərkəz açılır və ilk açılan iki mərkəzin fəaliyyəti də çox uğurludur. Vətəndaşların bəyənmə əmsalı 96 faizə çatıbdır. Burada göstərilən xidmətlər, əlbəttə, sosial təminat sahəsində böyük bir yenilikdir və təsadüfi deyil ki, artıq bir neçə ölkə bu təcrübə ilə bağlı bizə müraciət edib və Azərbaycan öz təcrübəsini bölüşməyə hazırdır.

Bütövlükdə 30-dan çox mərkəzin fəaliyyətə başlaması nəzərdə tutulur. Ümid edirəm ki, yaxın bir neçə il ərzində Bakıda və bütün ölkə üzrə DOST mərkəzləri fəaliyyətə başlayacaq. Eyni zamanda burada iş yerləri yaradılır. Mənə verilən məlumata görə, bu DOST mərkəzində 130-dan çox iş yeri yaradılır və o cümlədən könüllülər də işlərə cəlb olunur. Bütövlükdə 130-dan çox xidmətin göstərilməsi demək olar ki, sosial sahənin bütün xidmətlərini ehtiva edir. Beləliklə, bu mərkəzlərin fəaliyyəti həm insanlara rahatlıq verəcək, eyni zamanda, şəffaflıq istiqamətində önəmli addım artıq özünü doğruldub. Eyni zamanda burada tətbiq olunan innovasiyalar bizim gələcəyə baxışımızla tam uzlaşır. Çünki innovativ inkişaf bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Əlbəttə, DOST mərkəzləri məhz bu innovasiyalar əsasında fəaliyyət göstərir və gələcəkdə bu istiqamətdə əlavə addımların atılması da nəzərdə tutulur.

**- Cənab Prezident, açılışında iştirak etdiyiniz DOST mərkəzində digər mərkəzlərdə olduğu kimi, əməkdaşların mütləq əksəriyyəti gənclərdir. Siz tez-tez çıxışlarınızda gənclərin Azərbaycanın inkişafındakı rolunu xüsusi vurğulayırsınız. Ümumiyyətlə, Azərbaycanın bugünkü inkişafında gənclərin rolunu necə qiymətləndirirsiniz?**

- Mən gənclərin rolunu həmişə çox yüksək qiymətləndirmişəm. Bu gün də Azərbaycan gəncləri ölkəmizin uğurlu inkişafında öz fəal rolunu oynayırlar. Deyə bilərəm ki, gənclər cəmiyyətimizin ən fəal təbəqəsidir və bu gün gənclərə geniş imkanlar yaradılır. Gənclər önəmli vəzifələrə təyin olunur: nazir, icra başçısı vəzifələrinə. Eyni zamanda Milli Məclisdə kifayət qədər gənclərimiz var və DOST mərkəzində çalışan insanların demək olar ki, hamısı gənclərdir. Məhz innovasiyaya olan maraq, gənclərin fəallığı, onların müasir bilikləri imkan verdi ki, Azərbaycan öz daxili intellektual resursları hesabına belə mərkəzləri yaratsın və eyni zamanda, dediyim kimi, digər ölkələrlə bu təcrübəni bölüşsün. Ona görə gənclərlə çoxsaylı görüşlərim əsnasında mən onları həmişə biliklərə cəlb edirəm, dəvət edirəm ki, yaxşı oxusunlar, yaxşı peşəkar olsunlar və öz fəaliyyətləri ilə ölkəmizin inkişafına daha böyük xidmət göstərsinlər. Şadam ki, bu gün bizim gənclərimiz ən yüksək meyarlara cavab verirlər - bilik, peşəkarlıq, yenilik, müasirlik baxımından. Eyni zamanda onu da bildirməliyəm ki, gənclər xoşagəlməz hallara qarşı da mübarizədə bizə böyük dəstək olurlar. Bütövlükdə gələcəkdə Azərbaycanı idarə edəcək insanlar bugünkü gənclərdir. Ona görə onların bilikləri və eyni zamanda vətənpərvərliyi bizim müstəqilliyimizi daim gücləndirəcək və ölkəmizin uzun illər, onilliklər bundan sonra dayanıqlı inkişafını təmin edəcək.

**- Cənab Prezident, son illərdə Azərbaycanda əhalinin sosial təminatı ilə bağlı dünyanın çox nadir ölkələrində rast gəlinən kompleks tədbirlər həyata keçirilir. Bu sahədə icra olunan layihələr barədə nə deyə bilərsiniz?**

- Sosial sahə daim prioritet sahə olub və mənim əvvəlki illərdə də çıxışlarımda daim bu məsələyə böyük diqqət yetirilib. Xüsusilə son müddət ərzində - keçən il və bu il sosial sahə daha da böyük prioritet kimi gündəlikdə mövcuddur. Təsadüfi deyil ki, ötən il müstəqillik dövründə ən geniş sosial paket təqdim olundu və uğurla icra edildi. Bu sosial paketin əhatə dairəsi çox geniş idi - 4 milyon 200 min insan dövlət tərəfindən sosial paketlə təmin edildi. Bunun içərisində minimum əməkhaqqının təxminən 2 dəfə, minimum pensiyanın 70 faizdən çox qaldırılması məsələləri var idi. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB məkanında lider dövlətdir. Müavinətlər qaldırıldı - bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə. Problemli kreditlərlə bağlı məsələ öz həllini tapdı. Yəni, biz bu məqsədlər üçün milyardlarla manat ayırdıq və dediyim kimi, 4,2 milyon insanın güzəranı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı.

Bu ilin əvvəlindən bu meyillər daha da güclənibdir. Minimum əməkhaqqı və orta əməkhaqqının, orta pensiyanın artırılması göz qabağındadır. Nəzərə alsaq ki, manatın məzənnəsi də sabitdir, insanların real gəlirləri artır, inflyasiya aşağı səviyyədədir. Ona görə bu sahədə bu il görülən işlər keçən il görülmüş işlərin məntiqi davamıdır. Bu ilin xüsusiyyəti ondadır ki, biz indi pandemiya dövründə yaşayırıq və pandemiyaya bizim cavabımız çoxşaxəli olmuşdur. O cümlədən sosial təminatla bağlı çox ciddi, operativ və məqsədə hesablanmış addımlar atılmışdır. Artıq sirr deyil ki, dövlət sektorunda fəaliyyət göstərən 900 min insanın əməkhaqqı tam ödənildi, özəl sektorda təxminən 700 min insanın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənildi. Nəzərə alsaq ki, bu sektorda fəaliyyət göstərən insanlar işsiz qalmışdılar, işsiz vətəndaşların, aztəminatlı təbəqənin, o cümlədən qeyri-formal məşğulluqda fəaliyyət göstərən insanların sosial təminatı təşkil edildi, hər birinə 190 manat vəsait ayrıldı. Bu kateqoriyadan olan insanların sayı az deyil, 600 mindir. Bu işlərin hamısı əlbəttə ki, böyük maliyyə resursları tələb edir. Buna ünvanlı sosial yardım proqramını əlavə etsək, bu proqramla əhatə olunan insanların sayı kəskin artır. Hazırda 80 min ailə bu proqramla əhatə olunur və orta hesabla hər bir ailəyə hər ay 220 manatdan çox vəsait ödənilir.

Eyni zamanda ödənişli ictimai iş yerlərinin - 90 min iş yerinin açılması nəzərdə tutulur. Özünüməşğulluq proqramında 12 min insan əhatə olunur. Artıq biz bu proqramın bir hissəsini Dünya Bankı ilə birlikdə icra edirik. Yəni, bütövlükdə bu sahəyə ayrılan diqqəti və vəsaiti nəzərə alsaq, görərik ki, bu gün bizim üçün bu, prioritetdir və bu, belə də olmalıdır. Çünki pandemiyadan bütün dünya əziyyət çəkir, bütün ölkələr böyük çətinliklərlə üzləşiblər. İnkişaf etmiş ölkələrin bəzilərində iqtisadi tənəzzül 7-10 faiz səviyyəsindədir. Bu, hələ ilkin rəqəmlərdir. Azərbaycanda maliyyə sabitliyini qorumaq üçün bütün lazımi tədbirlər görüldü. Hər kəs bilməlidir ki, əgər maliyyə sabitliyi pozularsa, onda sosial proqramların icrasına da bizim imkanımız çatmayacaq.

Mən ilin əvvəlində və pandemiyanın artıq alovlanan dövründə demişəm ki, bir dənə də olsun sosial proqram ixtisar edilməyəcək və biz bunu təmin edirik. Eyni zamanda sosial infrastruktur layihələrinin heç biri ixtisar olunmayıb. Ona görə bu sahəyə göstərilən diqqət və əməli-praktiki addımlar bir daha bizim siyasətimizin mahiyyətini göstərir. Bir də onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

**- Cənab Prezident, informasiya-kommunikasiya texnologiyalarının inkişafı və innovasiyanın tətbiqi Sizin fəaliyyətinizin prioritet istiqamətlərindən biridir. Bu yaxınlarda CISCO şirkətinin rəhbərliyi ilə görüşdə də Sizin liderliyiniz və Azərbaycanda həyata keçirilən bu işlər çox yüksək qiymətləndirildi. İstərdik ki, bununla bağlı fikirlərinizi bölüşəsiniz.**

- Bilirsiniz, bu sahə bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycanda geniş vüsət almağa başlamışdır. Xatırlayıram, biz kosmik sənayenin yaradılması ilə məşğul olmağa başlayanda bəziləri təəccüb edirdi, bəziləri düşünürdü ki, Azərbaycan o qədər də böyük ölkə deyil, - kosmik klub dünya miqyasında çox məhdud bir klubdur, - və Azərbaycan üçün orada özünə yer tapmaq çətin olacaq. Ancaq həyat göstərdi ki, biz düzgün yoldaydıq. Çünki kosmik sənayenin yaradılması, üç peykin orbitə çıxarılması təkcə iqtisadi və digər maraqlarımızı təmin etmir, eyni zamanda bu, kadrların hazırlanması, gənc kadrların yeni texnologiyalara sahib çıxması baxımından da çox önəmli idi. Kadr hazırlığı olmadan müasir texnologiyalar heç bir ölkədə inkişaf edə bilməz. Ona görə biz həm dövlət resurslarımızı bu istiqamətə cəlb etdik və çox düzgün proqram tərtib etdik, həm də kadr hazırlığı ilə əlaqədar əməli-praktiki addımlara start verdik. Çünki bax, bu gözəl DOST mərkəzinin timsalında görürük, əgər burada peşəkar kadr olmasa, bu mərkəz fəaliyyət göstərə bilməz. Azərbaycan əksər ölkələr kimi, texnologiyaları idxal edir. Ancaq bu texnologiyaları işlətmək, onları mənimsəmək, bu texnologiyalar əsasında da yeni intellektual məhsul yaratmaq artıq kadr peşəkarlığından, kadr hazırlığından bilavasitə asılıdır.

Ona görə informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı bütün addımlarımız düzgün idi və CISCO şirkətinin rəhbərləri ilə videokonfrans çərçivəsində keçirdiyim görüş də bunu bir daha göstərdi. Biz təkcə CISCO şirkəti ilə əməkdaşlıq etmirik, biz demək olar ki, dünyanın informasiya-kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən bütün aparıcı şirkətlərlə sıx əməkdaşlıq edirik. CISCO şirkəti ilə biz, deyə bilərəm ki, artıq strateji tərəfdaşlıq əlaqələrinə yaxınlaşırıq. Əlbəttə ki, onların təklif etdiyi intellektual məhsul bizim gələcək inkişafımıza çox lazımdır. Misal üçün, biz hazırda ağıllı şəhər - "Smart City" layihəsi üzərində işləyirik. Bu layihənin ilkin təzahürləri artıq görünməkdədir. Biz daha uzağa gedərək artıq "Smart Nation" - yəni "Ağıllı ölkə" proqramı üzərində işləməyə başlamışıq. Ölkəmizin rəqəmsallaşdırılması, informasiya texnologiyalarının bütün sahələrdə tətbiq edilməsi bizim prioritet sahəmizdir.

Pandemiya dövründə, özünütəcrid şəraitində informasiya texnologiyaları olmadan iş görmək mümkün deyil. Misal üçün, mənim görüşlərim, videokonfrans şəklində keçirdiyim Zirvə görüşləri müasir texnologiyalar olmadan mümkün deyil. Ona görə hazırda həm iqtisadi sahədə, həm təhsil, səhiyyə, kənd təsərrüfatı sahələrində və digər sahələrdə, o cümlədən bizim su resurslarının nəzarəti, su balansının formalaşması və itkilərin azaldılması istiqamətində də məsələ qaldırıldı. Ona görə bu sahə, hər kəs bunu bilməlidir, gələcəyə atılan addımdır. Biz gecikə bilmərik, yubana bilmərik, geciksək uduzarıq. Ona görə bütün resurslarımızı, o cümlədən maliyyə, intellektual və kadr resurslarımızı səfərbər etmişik. Əminəm ki, gələcək illərdə Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində liderlik mövqelərini daha da möhkəmləndirəcək.

**- Cənab Prezident, şəhid ailələrinin sosial məsələlərinin həlli, onların mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində ölkəmizdə kompleks şəkildə tədbirlər həyata keçirildi. İstərdik bu barədə fikirlərinizi bölüşəsiniz.**

- Bu, daim diqqət mərkəzində olan məsələdir. Bu günə qədər 7600 şəhid ailəsi dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilibdir. Bu il şəhid ailələrinə verilən mənzillərin, evlərin sayı rekord həddə çatıb -1500 şəhid ailəsinə evlər, mənzillər veriləcək və beləliklə, növbədə duran şəhid ailələrinin sayı 2 mindən az olacaqdır. Ümid edirəm ki, maksimum iki il ərzində bütün şəhid ailələri dövlət tərəfindən evlərlə təmin ediləcəkdir.

Bununla paralel olaraq, biz minik maşınları da veririk - həm şəhid ailələrinə, həm də Qarabağ qazilərinə. Bu günə qədər 6 mindən çox minik maşını verilib, bu il də 400 maşının verilməsi nəzərdə tutulur. Deyə bilərəm ki, bu sahədə də Azərbaycan liderlik göstərir. Çünki dünyanın bir çox yerlərində müharibələr olub, münaqişələr, insan itkisi olub. Mən, əlbəttə, Azərbaycanı heç bir ölkə ilə müqayisə etmək istəməzdim, ancaq həqiqət ondan ibarətdir ki, Azərbaycanda müharibədən əziyyət çəkmiş, öz yaxınlarını itirmiş ailələrin dövlət tərəfindən dəstəklənməsi, hesab edirəm, ən yüksək səviyyədədir.

İndi bir daha demək istəyirəm ki, heç kimlə müqayisə aparmaq istəmirəm, amma baxın, Ermənistanda müharibədə ölənlər olubdur. Onlara mənzil verilir? Onlara avtomobil verilir? Yox. Orada pullar faşistlərin abidələrinin ucaldılmasına xərclənir. Amma biz bütün bu işləri görürük və görməliyik. Bu, bizim mənəvi borcumuzdur. Mənim şəhid ailələri ilə çoxsaylı görüşlərim, əlbəttə ki, cəmiyyət üçün də, şəhid ailələri üçün də çox önəmlidir. Biz şəhidlərin ruhu qarşısında baş əyirik və öz işimizi təkcə sözlə yox, əməllə təsdiq etməliyik. Ona görə artıq 7600 şəhid ailəsinə verilən evlər, - bu il onların sayı 9 minə çatacaq, - bizim əməli işlərimizin gözəl nəticəsidir.

**- Cənab Prezident, Azərbaycanda koronavirusun qarşısının alınması ilə bağlı görülən işlər və həyata keçiriləcək tədbirlər barədə nə deyə bilərsiniz?**

- Koronavirusla bağlı işlər əvvəldən Azərbaycanda çox düzgün istiqamətdə aparıldı və bunu həm Azərbaycan xalqı görür və təqdir edir, həm də beynəlxalq təşkilatlar. Bu günə qədər mən vətəndaşlardan gündə yüzlərlə məktub alıram. Yəni pandemiyanın ilk günlərindən minlərlə məktub almışam və bütün bu məktublar təşəkkür xarakterli məktublardır. Çünki doğrudan da, qabaqlayıcı tədbirlərin görülməsi bizi böyük bəladan xilas etdi. Yenə də hər şey müqayisədə ölçülür. Əhalisinin sayı Azərbaycanla eyni olan inkişaf etmiş ölkələrdə vəziyyət necədir, Azərbaycanda vəziyyət necədir? O ölkələrin bəzilərində bu günə qədər 10 minə yaxın insan vəfat etdi. Azərbaycanda vəfat edənlərin sayı kifayət qədər azdır. Eyni zamanda qabaqlayıcı, məhdudlaşdırıcı tədbirlər imkan verdi ki, biz pandemiyanın geniş vüsət almasının qarşısını alaq və buna nail olduq. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı bizim bu sahədə gördüyümüz işləri yüksək qiymətləndirir və Azərbaycanı nümunəvi ölkə adlandırır. Bu, bizim gördüyümüz işlərə verilən böyük qiymətdir. Mən bilmirəm başqa bir ölkəyə belə bir ad verilib, yoxsa yox. Bu, doğrudan da, görülmüş işlərin məntiqi nəticəsidir. Çünki bəri başdan bizim əsas məqsədimiz xalqımızı, vətəndaşlarımızı bu xəstəlikdən qorumaq idi. Bütün digər iqtisadi məsələlər, iqtisadiyyatın tənəzzülə uğraması, iqtisadiyyatda yarana biləcək problemlər arxa plana keçdi. Halbuki biz bu məsələlərlə də ciddi məşğul olmuşuq. Amma birinci məsələ insanların sağlamlığı, ikinci məsələ insanların sosial təminatı idi ki, biz hər ikisini də təşkil etdik.

Deyə bilərəm ki, səhiyyə sistemimizi qısa müddət ərzində yenidən qura bildik. Mən burada xüsusilə İcbari Tibbi Sığorta Agentliyinin və TƏBİB-in fəaliyyətini yüksək qiymətləndirirəm. Orada da fəaliyyət göstərənlərin mütləq əksəriyyəti gənclərdir və burada da gənclər göstərdilər ki, nəyə qadirdirlər. Çünki belə bir çətin şəraitdə heç bir ölkənin səhiyyə sistemi buna hazır deyildi. Belə bir çətin şəraitdə bütün təşkilati işləri görmək doğrudan da, böyük nailiyyətdir. Xəstəxanaları müəyyən etmək, logistika işlərini təmin etmək, xəstələri regionlar üzrə bölmək, karantin rejimində saxlanılanların təminatını təşkil etmək, onlar üçün bütün bu təşkilati-logistik məsələləri həll etmək, xaricdən vətəndaşları təxliyə etmək - biz bütün bunları Operativ Qərargah çərçivəsində, o cümlədən həkimlərin və TƏBİB-in fəal iştirakı ilə təmin edə bilmişik. Ona görə biz artıq aprelin sonunda gördük ki, üç həftə ərzində dinamika müsbətdir, yoluxanların sayı sağalanların sayından azdır və biz yumşalma tədbirlərinə keçdik. Əfsuslar olsun ki, yumşalma tədbirləri yoluxanların sayına mənfi təsir göstərmişdir. Ancaq bu gün vəziyyət tam nəzarətdədir və bütün ölkələr artıq açılır. Hətta pandemiyanın geniş vüsət aldığı ölkələr də açılır və biz də yavaş-yavaş açılırıq. Amma vəziyyəti tam nəzarətdə saxlayırıq.

Bizdə hazırda 20-dən çox xəstəxana sırf koronavirusla bağlı fəaliyyət göstərir, orada ancaq koronavirus xəstələri müalicə olunur - hazırda 19 xəstəxanada. Çünki indi bəzi xəstəxanalarda artıq xəstə qalmır. Ancaq 20-dən çox xəstəxana hazırdır, modul tipli 10 xəstəxananın inşası başlamışdır, birinin açılışında mən iştirak etmişəm. Bu da bizə əlavə 2000 yataq verəcəkdir. Bütün tibbi avadanlıq təmin edilib, süni tənəffüs aparatları gətizdirilib, reanimasiyada kifayət qədər boş yerlərimiz var, yataqlar kifayət qədərdir, karantində saxlanılanların sayı xaricdən gələnlərin sayı ilə birbaşa əlaqəlidir. Çünki xaricdən təxliyə edilən vətəndaşları biz iki həftə karantində saxlayırıq. Deməliyəm ki, 20 mindən çox Azərbaycan vətəndaşı mütəşəkkil qaydada xaricdən təxliyə edilib. Biz bu işləri kortəbii görə bilmərik. Mütəşəkkil qaydada, qrafik üzrə, ölkələr üzrə bölgü aparılıbdır: hansı ölkədən nə vaxt, nə qədər Azərbaycan vətəndaşı gələcək. Bu işlər bu qaydada davam etdiriləcək. Ən çox təxliyə edilmiş vətəndaşlarımız Rusiyadan gəlib. Bu günə qədər Rusiyadan 6500 Azərbaycan vətəndaşı gəlib və bu proses davam etdirilir, ancaq dediyim kimi, mütəşəkkil qaydada. Hər kəs öz adını qeydiyyata salmalıdır, xüsusi portal da - "Evə gedirəm" mövcuddur. Ona görə təxliyə işləri də mütəşəkkil qaydada aparılacaq.

Karantin şəraiti çox gözəldir və mən karantində qalanlardan da çoxsaylı məktublar alıram, onları dörd-beş ulduzlu hotellərdə saxlayırıq. Biz özümüz indi tibbi maska, kombinezon, dezinfeksiya vasitələri istehsalına başlamışıq. Ona görə bu kompleks tədbirlər, əlbəttə ki, bizi böyük bəladan qoruya bildi. İndiki şəraitdə ki, artıq yumşalma prosesi gedir, əsas amil vətəndaşların məsuliyyəti olacaq. Mən bir daha demək istəyirəm ki, vətəndaşlar bu məsuliyyəti dərk etsinlər. Pandemiya başa çatmayıb, virus qeyb olmayıb, bu virus dolaşacaq. Ona görə hər kəs özünü, öz yaxınlarını qorumalıdır, öz məsuliyyətini hiss etməlidir və nizam-intizama da əməl etməlidir.

**- Cənab Prezident, belə bir çətin şəraitdə əhalinin sosial təminatı, pandemiyanın törətdiyi iqtisadi fəsadların aradan qaldırılması ilə yanaşı, Azərbaycan bir sıra xarici ölkələrə yardım da edir. İstərdik bu məsələ ilə bağlı da fikirlərinizi bildirəsiniz.**

- Mən hesab edirəm ki, bu, bizim apardığımız siyasətin tərkib hissəsidir. Çünki xarici siyasətə gəldikdə, biz həmişə əməkdaşlığa üstünlük vermişik və bunun faydasını görmüşük. Harada imkanımız olub, əgər imkanımız olubsa, kömək etməyə çalışmışıq və etmişik. Bizim bir neçə önəmli transmilli layihəmiz məhz bu prinsip əsasında qurulub və uğur da məhz bu prinsip əsasında qazanılır. Ona görə xarici siyasətdə qarşılıqlı dəstək sözdə yox, əməldə olmalıdır, həmrəylik əməldə olmalıdır.

Biz indi iki təşkilata sədrlik edirik və bu iki təşkilatın Zirvə görüşünü keçirmişik - Türk Şurası və Qoşulmama Hərəkatı və ən yüksək səviyyədə. Qoşulmama Hərəkatının və Türk Şurasının yekun bəyannaməsində Azərbaycanın xüsusi rolu qeyd olundu. Biz hər bir işə çox məsuliyyətlə yanaşırıq və bizim sədrliyimiz formal xarakter daşımamalıdır və daşımır. Ona görə çətin gündə kimin imkanı varsa, kömək etməlidir, həyatda da, siyasətdə də. Bu, bizim, necə deyərlər, adət-ənənələrimizə də uyğundur. Ona görə bu gün bu yardımın göstərilməsi hesab edirəm ki, düzgün addımdır. Bu günə qədər biz 13 ölkəyə yardım göstərmişik və bu haqda ancaq son vaxtlar danışmağa başlamışıq. Biz təyyarələrlə yardımlar göndərmişik, yüzlərlə ton yardım göndərmişik. Azərbaycanda istehsal olunan dezinfeksiya vasitələri, qoruyucu vasitələr və digər əşyalar göndərmişik, amma bunu reklam etməmişik. Bunu mənəvi borc bilərək etmişik, o ölkələrə ki, onlar bizə müraciət edib. Biz bilirik, o ölkələrin maliyyə vəziyyəti imkan vermir ki, onlar lazımi tədbirləri görsün. Əminəm ki, bu yardım bir çox insanın həyatını xilas etdi. Əsas məsələ budur. Beləliklə, 13 ölkəyə artıq yardım göstərilib, o cümlədən üç beynəlxalq təşkilata yardım göstərilibdir. Bu, bir daha bizim məsuliyyətimizi göstərir.

Təsadüfi deyil ki, Azərbaycan dünya miqyasında çox böyük hörmətə və yüksək imicə malik olan ölkədir. Əks təqdirdə, biz səkkiz il bundan əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına seçilməzdik. Əks təqdirdə, Qoşulmama Hərəkatının yekdil qərarı ilə, 120 ölkənin qərarı ilə sədr seçilməzdik. Çünki mən demişəm, bu təsisatda bir çox ölkələr cəmləşir ki, bir-biri ilə yola getmir. Amma onların hər biri Azərbaycanı dəstəklədi. Nəyə görə? Çünki biz məsuliyyətli ölkəyik, biz özümüzə hörmət edirik, öz ləyaqətimizi qoruyuruq, tərəfdaşlara da hörmət edirik. Yardım edəndə bunu elə formada edirik ki, bu, yardımı alan üçün də məqbul olsun və öz işimizi bu istiqamətdə davam etdirəcəyik.

Pandemiya dövründə həm insanlar, həm də ölkələr özünün əsl simasını üzə çıxardı. Elə insanlar var ki, pandemiya dövründə onlara əl vermək böyük günah olar. Elə ölkələr var ki, pandemiya dövründə özlərinə qapanıblar və xüsusilə ilkin mərhələdə bəzi addımlar atıblar və indi yəqin utanırlar. Azərbaycan o ölkələrdəndir ki, həmişə üzüağ, alnıaçıq olub və pandemiya bunu bir daha təsdiqləyib.

**- Cənab Prezident, suallarımızı ətraflı cavablandırdığınız üçün Sizə minnətdarıq, çox sağ olun.**

- Sağ ol, təşəkkür edirəm.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-alinizə və Sizin timsalınızda dost xalqınıza ölkənizin milli bayramı - Respublika Günü münasibətilə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Mən bu gözəl fürsətdən istifadə edərək dost ölkələrimizin maraqları naminə ikitərəfli münasibətlərimizin bütün sahələrdə daha da inkişafını ürəkdən arzuladığımı bildirirəm.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram.

*Böyük hörmət və ehtiramla,*

***Əbdülfəttah əs-SİSİ,***
***Misir Ərəb Respublikasının Prezidenti***

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sinqapur xalqı adından Sizə və xalqınıza səmimi təbriklərimi, ölkənizin və xalqınızın rifahı və əmin-amanlığı naminə ən xoş arzularımı çatdırıram. COVID-19 pandemiyasının bütün dünyada yayıldığı bir vaxtda birgə səy göstərilməsinə və daha geniş beynəlxalq əməkdaşlığa zərurət vardır. Sinqapur pandemiyanın təsirinin yumşaldılması, qlobal ticarət və məhsul təchizatı zəncirindəki əlaqələrə dəyən ziyanın azaldılması məqsədilə beynəlxalq ictimaiyyətlə sıx əməkdaşlığı davam etdirəcəkdir.

*Hörmətlə,*

***Xanım Həlimə YAQUB,***
***Sinqapur Respublikasının Prezidenti***

## ABŞ-ın Arizona ştatının paytaxtında 28 may Azərbaycan Milli Günü elan edilib




ABŞ-ın Arizona ştatının paytaxtı Finiks şəhəri 28 mayı Azərbaycan Milli Günü elan edib. Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a verilən məlumata görə, bununla bağlı şəhər meri Keyt Qayeqo tərəfindən müvafiq bəyannamə imzalanıb.

Baş konsulluğa göndərilmiş bəyannamədə Azərbaycan xalqının müsəlman dünyasında ilk dünyəvi və demokratik respublika yaratdığı vurğulanır. Bəyannamədə Azərbaycanın 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən sonra ABŞ-ın ölkəmizi tanıyan və onunla diplomatik münasibətlər quran ilk dövlətlərdən biri olduğu bildirilir. Ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra öz suverenliyini və müstəqilliyini gücləndirdiyi, dünyanın ən sürətlə inkişaf edən və çağdaşlaşan dövlətlərindən birinə çevrildiyi, bu gün regionun ən böyük iqtisadiyyata malik ölkəsi və ABŞ-ın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşı olduğu vurğulanır.

Bəyannamədə, həmçinin ABŞ və Finiks şəhəri də daxil olmaqla, bütün dünyada yaşayan milyonlarla azərbaycanlının 28 may tarixini Azərbaycanın Milli Günü kimi bayram edərək, öz əcdadlarının ətraf regionlarda, o cümlədən Mərkəzi Asiya və Yaxın Şərq regionlarında demokratiyanın yayılmasına verdiyi töhfələri xatırladığı və Azərbaycan Respublikasının azad və müstəqil dövlət kimi önəmli uğurlarını qeyd etdiyi bildirilir.

Bəyannamənin sonunda mer K.Qayeqo 28 may tarixini Finiks şəhərində Azərbaycan Milli Günü elan edir və şəhər sakinlərini bu bayramı və Azərbaycanın uğurlarını qeyd etməyə çağırır.

Qeyd edək ki, 1,6 milyonluq əhaliyə malik Finiks şəhəri ABŞ-da əhali sayına görə beşinci ən böyük şəhərdir.

# İlham Əliyevin qlobal təşəbbüsləri böyük dəstək qazanır

### Azərbaycan pandemiya ilə mübarizə şəraitində dünyada həmrəyliyə mühüm töhfə verir, təcrübəsini bölüşür, ölkələrə yardımlar edir

*Əvvəli 1-ci səh.*

Yəni onların daxili maliyyə resursları lazım olan qabaqlayıcı tədbirlərin reallaşdırılmasına imkan vermir. Sevindirici haldır ki, bu siyahıda Azərbaycanın adı yoxdur. Çünki ölkəmiz öz gücü ilə bu bəlaya qarşı mübarizə aparmaqdadır.

Ümumiyyətlə, Azərbaycan nəinki milli səviyyədə koronavirusla mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda regional və qlobal miqyasda pandemiyaya qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə verir, təcrübəsini bölüşür.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanın koronavirusa qarşı mübarizə sahəsində təcrübəsi ən mütərəqqi və ən insansevər təcrübədir. Azərbaycan Prezidenti isə region və bütövlükdə, dünya üçün çox faydalı olan təşəbbüslər irəli sürür. Ümumdünya Səhiyyə Təşkilatı isə bir çox ölkələrə Azərbaycanın təcrübəsindən yararlanmağı tövsiyə edir. Bununla yanaşı, Azərbaycan köməyə ehtiyacı olan dövlətlərə yardımlar edib və xeyirxahlıq missiyasını davam etdirməkdədir.

Həmçinin son iki ayda Prezident İlham Əliyevin təşəbbüsü ilə videokonfrans formatında keçirilən beynəlxalq təşkilatların zirvə görüşlərinin və digər görüşlərin mövzusunun da koronavirusa qarşı mübarizəyə həsr olunması bir daha təsdiq etdi ki, Azərbaycan bu istiqamətdə dünyanı birləşdirir, təcrübəsini istənilən dövlətlə bölüşür. Bununla da ölkəmiz dünyaya nümayiş etdirir ki, sözü ilə əməli vəhdət təşkil edən etibarlı tərəfdaşdır.

Azərbaycan pandemiyaya qarşı mübarizədə köməyə ehtiyacı olan dövlətlərə yardımlar edir. Mayın 12-də Sumqayıtda "Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska fabrikinin və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında Prezident İlham Əliyev bu məsələyə toxunaraq vurğulamışdır ki, Azərbaycan artıq 10-dan çox ölkəyə yardım göstərib, yük təyyarələri, tibbi ləvazimatlar, dezinfeksiya materialları göndərib: "Bəzi ölkələrə maliyyə yardımı göstərmişik. Ümumdünya Səhiyyə Təşkilatına iki dəfə donor ianəsi etmişik. Belə ölkələrin sayı o qədər də çox deyil. Ona görə də bu, bizim məsuliyyətimizi göstərir. Onu göstərir ki, biz pandemiyaya qarşı qlobal müstəvidə də fəal rol oynayırıq".

Əlavə edək ki, Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına koronavirusla mübarizə sahəsində tədbirlərin həyata keçirilməsi üçün 10 milyon dollar yardım edib.

### Ölkəmiz pandemiya ilə mübarizədə Moldovaya da yardım göndərib

Son günlərdə cənab İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə telefon danışıqlarında, habelə Moldova Prezidenti İqor Dondonun təşəbbüsü ilə videokonfrans formatında keçirilən görüşdə səslənən fikirlər də təsdiq edir ki, Azərbaycanın pandemiya ilə mübarizədəki effektiv təcrübəsi, eyni zamanda ölkələrə etdiyi yardımlar təqdir edilir.

Rusiya ilə Azərbaycan prezidentləri arasında telefon söhbəti zamanı dövlət başçıları koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən işlərdən danışıb və bu istiqamətdə ölkələrimizin sərhəd-keçid məntəqələrində qarşılıqlı əlaqələndirmə şəraitində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparıblar. Dövlət başçıları Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq əlaqələrinin bütün sahələrdə uğurla genişləndiyini vurğulayaraq əməkdaşlığın postpandemiya dövründə inkişaf perspektivlərini də müzakirə ediblər.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev isə cənab İlham Əliyevin təşəbbüsü ilə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilən Zirvə görüşünü xatırlayıb və bu tədbirin ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsi və həmrəyliyin gücləndirilməsi baxımından önəmini qeyd edib.

Moldova Prezidenti İqor Dondon isə cənab İlham Əliyevə Azərbaycanın bu ölkəyə göstərdiyi yardıma görə minnətdarlığını bildirib. Bəlli olub ki, Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan pandemiyaya qarşı mübarizədə Moldovaya yardım göstərilməsi ilə bağlı qərar qəbul edib. Bunun müqabilində Moldova Prezidenti də deyib: "Ötən həftə xüsusi təyyarə ilə Sizin göndərdiyiniz yardımı qəbul etdik. Bütün xalqımız adından Sizə təşəkkürümü bildirirəm ki, Bakıdan olan qardaşlarımız bu ağır vəziyyətdə bizə kömək etmək qərarına gəliblər. Bilirəm ki, Sizin ölkədə də pandemiya ilə mübarizə aparılır. Onu da bilirik ki, Siz bunun öhdəsindən layiqincə gəlirsiniz".

Prezident İlham Əliyev isə qeyd edib ki, Azərbaycanın bu çətin gündə Moldovaya həmrəylik göstərməsi təbiidir. Çünki məhz çətin vaxtda ölkələr bir-birinə dəstək göstərməlidirlər. Çünki hər kəsdə vəziyyət yaxşı olanda hamı bir-birini təbrik edir və uğurlarına sevinir. Lakin ağır günlərdə edilən dəstək çox önəmlidir. Ona görə də tərəfdaş ölkələr imkan daxilində bir-birinə dəstək olmalıdırlar.

Cənab İlham Əliyev həmçinin pandemiyanın dünya dövlətlərinə vurduğu zərərdən söz açaraq bildirib ki, qlobal böhran bütün ölkələrdə hadisələrin gedişatına, o cümlədən də beynəlxalq siyasət məsələlərinə öz təsirini göstərib. Lakin müasir texnologiyalar fəal işləməyə və hətta bu rejimdə ünsiyyət qurmağa imkan verir.

Göründüyü kimi, Azərbaycan koronavirus pandemiyası ilə mübarizədə nümunəvi yanaşma göstərir. Bu, Azərbaycan vətəndaşlarının Prezidentə ünvanladıqları minlərlə məktublarda və beynəlxalq təşkilatların, böyük dövlətlərin rəhbərlərinin söylədikləri fikirlərdə öz əksini tapır. Əlbəttə ki, bu, görülmüş işlərə verilən böyük dəyər və yüksək qiymətdir.

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Prezidenti tövsiyələri ilə deputatlar qarşısında yeni vəzifələr irəli sürmüşdür

### Sahibə QAFAROVA: "Ən mühüm vəzifələrdən biri budur ki, deputatlar seçildikləri dairələrdə fəal iş aparmalı və seçicilərlə daim təmasda olmalıdırlar"

*Əvvəli 1-ci səh.*

### Xalqın aşağılanması ilə bağlı məsuliyyət sərtləşdirilməlidir

İclasda bir sıra məsələlərlə bağlı fikirlər də səsləndi. Parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov diqqəti "milli şura" adlanan qurumda səslənən fikirlərə yönəldərək dedi ki, Azərbaycan xalqını və dövlətini aşağılayan ifadələrin işlədilməsi cinayət məsuliyyəti ilə ölçülməli və qanunların müddəaları bu baxımdan daha da sərtləşdirilməlidir.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev respublikamızda koronavirusla mübarizə sahəsində görülən işlərdən söz açdı. Qeyd etdi ki, Azərbaycan koronavirusla mübarizədə ən uğurlu nəticələr əldə edən dövlətdir.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc dedi ki, dövlət sirlərini təkcə təhlükəsizlik orqanları qorumalı deyil. İndi artıq istefada olan və mühüm dövləti məlumatlara bir vaxtlar çıxış səlahiyyəti qazanan adamların hazırkı məsuliyyətindən də bəhs etmək daha önəmlidir. Dərin təhlillər göstərir ki, Azərbaycan dövlətinin siyasi, hərbi və milli təhlükəsizliyinə aid olan məlumatlar açıq informasiya məkanına çıxarılmaqda davam edir. Hakimiyyətə düşmən kəsilən qüvvələrin çıxışlarında, yaxud adi blogger yazılarında kod altında olan məlumatların izi açıqca görünür. Bunların cinayət əməlləri olduğunu deyən Zahid Orucun sözlərinə görə, bütün sabiq vəzifə adamlarına təkrarən məlumatların yayılmamasına dair öhdəlik aktları imzalatdırmaq məqsədəuyğun olardı.

### Bəzi Qarabağ ermənləri Azərbaycan sərhədləri çərçivəsində yaşamaq istədiklərini bildiriblər

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının fəaliyyətini ən yaxından izləyənlər sırasında Dağlıq Qarabağ bölgəsinin erməni sakinləri də var.

Bunu isə "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi İdarə Heyətinin sədri, deputat Tural Gəncəliyev bildirdi. Onun sözlərinə görə, bəzi ermənilər Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasına müraciət edərək, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində, Azərbaycan Konstitusiyasına uyğun şəkildə bir yerdə sülh şəraitində yaşamaq istədiklərini bildiriblər. "Həmin ermənilərə müraciət edərək bildirirəm ki, onlar özləri kimi rasional düşünən digər erməni sakinləri də öz ətraflarında birləşdirməli və Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ilə birlikdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində sülh şəraitində yaşamaq üçün tezliklə hərəkətə keçməli və işğalçı Ermənistan qüvvələrinin, işğalçı rejimin oradakı mövcudluğuna son qoymalıdırlar", - deyə Tural Gəncəliyev diqqətə çatdırdı.

### Siyasi zərbə alan Paşinyanın sayıqlaması

Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Azərbaycan gerçəklərinin dünyada daha çox yayılmasının vacibliyindən danışdı. Qeyd etdi ki, Ermənistanın baş naziri Nikol Paşinyanın babasının faşistlərlə əməkdaşlığının faktlarla üzə çıxmasından sonra ermənilərin Azərbaycan tarixinə qarşı hücumları artıb. Biz buna qarşı da mübarizəmizi artırmalıyıq. Ermənilərin faşistlərə müsbət münasibəti Qaregin Njdeyə qoyulan heykəllə, Paşinyanın babası ilə bağlı çıxan sənədlərlə bir daha təsdiq olundu. Cümhuriyyət tariximizə qarşı ermənilərin hücumlarına diaspor tərəfindən yüksək səviyyədə cavab verilməlidir.

Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli Ermənistan mətbuatında Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin Paşinyanın babası ilə müqayisə olunmasına münasibət bildirdi. Onun sözlərinə görə, bütün bunlar Azərbaycan Prezidenti tərəfindən siyasi zərbə alan baş nazir Nikol Paşinyanın sayıqlamasıdır: "Baba Paşinyan kimdir?! Faşistlərə əsir düşəndən sonra faşizmə qulluq edən kommunistdir! Paşinyanın babası 1943-cü ildə imdad diləyib və uğursuz nəticə əldə edib. Məhəmməd Əmin Rəsulzadə Azərbaycan dövlətinin yaradıcılarından biridir. Paşinyan faşistlərə özü müraciət edib və əsir düşüb, faşistlərdən nəsə qoparmaq istəyib. Amma Rəsulzadəni dəvət ediblər, kommunizmin əleyhdarı kimi ona əməkdaşlıq təklif ediblər. Lakin Rəsulzadə "Azərbaycan müstəqil olmalıdır", - deyəndə cavab verilib ki, "ölkəni tərk etməlisən".

Deputatlardan Fazil Mustafa, Naqif Həmzəyev bir sıra digər məsələlərlə bağlı təkliflərlə çıxış etdilər.

### İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı dinlənildi

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başladı. İlk olaraq İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı dinlənildi. Məlumatı Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini, polis general-mayoru Seyfulla Əzimov diqqətə çatdırdı.





Qeyd olundu ki, ölkəmizdə insan alveri cinayətlərinə qarşı mübarizənin səmərəli aparılmasını, qurbanların hüquqlarının müdafiə olunması imkanlarının genişləndirilməsini təmin edən mükəmməl qanunvericilik bazası formalaşıb. İnsan alverinə qarşı mübarizədə hökumət tərəfindən də bir sıra mühüm qərarlar qəbul edilib, bu cinayətlərdən zərər çəkmiş şəxslərə ödənilən müavinətin məbləği 400 manatdan 700 manatadək artırılıb.

Ötən il ərzində insan alverinə qarşı mübarizə sahəsində geniş maarifləndirmə işləri aparılıb. Respublikanın 55 şəhər və rayonunda, orta ixtisas və ali təhsil müəssisələrində insan alverinə və məcburi əməyə qarşı mübarizəyə dair seminarlar keçirilib. Bununla bağlı Bakı şəhərində geniş ictimaiyyət üçün nəzərdə tutulmuş təşviqat xarakterli videolar, təbliğat materialları paylanılıb, televiziya və radioda, videoportallarda verilişlər yayımlanıb.

Məcburi əməyin qarşısının alınması, bu əməllərə şərait yaradan halların aradan qaldırılması istiqamətində də lazımi tədbirlər həyata keçirilir. Aparılan monitorinqlər nəticəsində 120 tikinti obyektində 351 nəfərin əmək müqaviləsi olmadan çalışdığı aşkar edilib. Bununla bağlı, ümumilikdə, 454.000 manat inzibati cərimə tətbiq edilib. Vurğulandı ki, Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə aparılan sosial islahatlar nəticəsində 2018-ci illə müqayisədə ötən il ölkə üzrə bağlanılan əmək müqavilələrinin sayında 153 min artım qeydə alınıb. Uşaq əməyinin istismarının qarşısının alınması sahəsində görülən tədbirlər çərçivəsində övladlarının təlim-tərbiyəsi ilə bağlı vəzifələri yerinə yetirməyən 180 valideyn barəsində inzibati tənbeh tədbirləri görülüb.

2019-cu ildə insan alveri cinayətlərinin aşkarlanması və təqsirkar şəxslərin məhkəmə məsuliyyətinə verilməsi sahəsində məqsədyönlü işlər aparılıb. Həyata keçirilən tədbirlər nəticəsində 186 insan alveri, o cümlədən 4 məcburi əmək, habelə insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə əlaqədar 36 cinayət qeydə alınıb, 10 nəfərdən ibarət 4 cinayətkar qrup zərərsizləşdirilib. Müəyyən edilmiş 91 insan alveri qurbanından 89-u Azərbaycan vətəndaşıdır, ikisi əcnəbidir. Zərərçəkənlərə tibbi, psixoloji və hüquqi yardımlar göstərilib.

Məsələ ilə bağlı komitə sədrləri Zahid Oruc, Tahir Rzayev, Siyavuş Novruzov, Qənirə Paşayeva, deputatlardan İsa Həbibbəyli, Qüdrət Həsənquliyev, Aydın Mirzəzadə, Cavid Osmanov, Məlahət İbrahimqızı, Fazil Mustafa, Məşhur Məmmədov, Fəzail Ağamalı və Səttar Möhbalıyev fikirlərini bildirdilər, insan alverinə qarşı həyata keçirilən tədbirləri yüksək qiymətləndirdilər. Çıxış edənlər həmçinin Azərbaycan polisinin karantin günlərində, koronavirusla mübarizə tədbirlərində özünün xidməti borcunu ən yüksək səviyyədə və peşəkarlıqla həyata keçirdiyini qeyd etdilər.

Milli Məclisin Sədr müavini Adil Əliyev ölkəmizdə insan alverinə qarşı səmərəli tədbirlərin həyata keçirildiyini deyərək, illik məlumatın müfəssəl hazırlandığını qeyd etdi. Adil Əliyev həmçinin polislərin pandemiya dövründəki fəaliyyətinin də yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Yekunda Daxili İşlər nazirinin birinci müavini, polis general-mayoru Seyfulla Əzimov çıxışlarda qeyd olunan məsələlərə münasibət bildirdi və İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı səsə qoyularaq nəzərə alındı.

### Hüquqi şəxslərin dövlət reyestrinin aparılması qaydası dəyişir

Fasilədən sonra işini davam etdirən ali qanunverici orqan parlamentə bir məktubda daxil olan 6 məsələ - Cinayət-Prosessual Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Turizm haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Heyvanlar aləmi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Bələdiyyələrin su təsərrüfatı haqqında" və "Ətraf mühitə dair informasiya almaq haqqında", Vergi Məcəlləsində, "Qiymətləndirmə fəaliyyəti haqqında" və "İcra məmurları haqqında", "Təhsil haqqında" və "Dövlət rüsumu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda müzakirəyə çıxarıldı.

Sənədlərlə bağlı məlumat verən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirdi ki, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda ediləcək dəyişiklikdə hüquqi şəxslərin dövlət reyestrinin aparılması qaydasının dəyişməsi təklif edilir. Dəyişikliyə əsasən, hüquqi şəxslərin, xarici hüquqi şəxslərin nümayəndəlik və ya filiallarının məhkəmənin qərarı ilə yenidən təşkil edilməsinin, yaxud ləğv olunmasının qadağan edilməsi barədə məlumatlar da dövlət reyestrinə daxil ediləcək.

"Turizm haqqında" qanuna və Miqrasiya Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, birdəfəlik və ya çoxdəfəlik elektron vizanın verilməsində yeni prosedur qaydaları qanunvericiliyə daxil edilir. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli fərmanı ilə "ASAN Viza" sistemi haqqında Əsasnamə"də dəyişiklik edilib, elektron viza birdəfəlik və çoxdəfəlik elektron vizalara bölünüb. Müəyyən edilib ki, birdəfəlik və çoxdəfəlik elektron vizanın verilməsi ilə bağlı müraciət qəbul edildikdən sonra ən geci 3 iş günü müddətində, birdəfəlik elektron vizanın sürətləndirilmiş qaydada alınması üçün müraciət edildikdə ən geci 3 saat ərzində, birdəfəlik elektron vizanın Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında alınması üçün müraciət edildikdə isə real vaxt rejimində verilir.

Miqrasiya Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, birdəfəlik elektron vizanın Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında alınması üçün müraciət edildikdə real vaxt rejimində "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin məhdudiyyət siyahıları üzrə yoxlama aparılacaq, imtina üçün əsas olmadıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada viza veriləcək.

"Ətraf mühitə dair informasiya almaq haqqında" qanunda nəzərdə tutulmuş dəyişikliyə əsasən isə, ətraf mühitə təsirin qiymətləndirilməsinə dair məlumatlar açıqlanacaq.

"Dövlət rüsumu haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən, xarici ölkələrin ali təhsil müəssisələrinin diplomlarının tanınmasına görə tutulan 15 manat dövlət rüsumu ləğv edilir. "Təhsil haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən isə, təhsil müəssisəsinin akkreditasiyasına görə bu qanunla müəyyən edilmiş məbləğdə dövlət rüsumu ödəniləcək.

6 sənəd ayrı-ayrılıqda səsverməyə çıxarılaraq qəbul edildi.

İclasda həmçinin "Əmanətlərin sığortalanması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi bir oxunuşda müzakirəyə çıxarılaraq təsdiqləndi.

### Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi gücləndirilir

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırdı ki, gündəlikdəki 8-17-ci sənədlərə təklif olunan dəyişikliklər əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi ilə bağlıdır. Qanun layihələrinə təklif olunan dəyişikliklər texniki və uyğunlaşdırma xarakteri daşıyır və sənədlər bir oxunuşda müzakirə edilib qəbul olunacaq.

"Əlillərin sosial müdafiəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə sənəd haqqında məlumat verən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirdi ki, dəyişikliklə "Əlillərin sosial müdafiəsi haqqında" qanunun qüvvəyə minməsi barədə" Milli Məclisin 1992-ci il 25 avqust tarixli 285 nömrəli Qərarı ləğv edilir.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanuna təklif edən digər dəyişikliyə əsasən, qanunda "əlil" ifadəsi əvəzinə "əlilliyi olan şəxs", "əlillik qrupu" ifadəsi əvəzinə "əlillik dərəcəsi", "qüsur" sözü əvəzinə "pozuntu" sözündən istifadə ediləcək.

Bu qanun layihəsinə uyğunlaşdırılan 10 sənəd ayrı-ayrılıqda səsverməyə çıxarılaraq qəbul edildi.

İclasda "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarıldı. Sənədlə bağlı məlumat verən deputat Nizami Səfərov bildirdi ki, dəyişikliyə əsasən, İnzibati Xətalar Məcəlləsinə əlilliyi olan şəxslərin hüquqları haqqında qanunvericiliyin pozulmasına dair yeni maddə (205-1) əlavə edilməsi təklif olunur. Təklif edilən yeni maddəyə əsasən, əlilliyi olan şəxslərin hüquqları haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyətlər və cərimələr müəyyən edilib.

Deputatlar dəyişikliyə müsbət münasibət bildirdilər.

### Daha çox ailə ünvanlı sosial yardımdan faydalana biləcək

Gündəliyin sonuncu məsələsi "Ünvanlı dövlət sosial yardımı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi idi. Sənədi birinci oxunuşda təqdim edən parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirdi ki, ilin əvvəlində Prezident İlham Əliyev ünvanlı sosial yardıma daha çox insanların cəlb edilməsi üçün hökumətə tapşırıqlar verib. Dəyişikliklərin hamısı mütərəqqi xarakter daşıyır: "Bu, vətəndaşların ünvanlı sosial yardım alması üçün şərtlərin stimullaşdırılmasına xidmət edir. Ünvanlı sosial yardımın yalnız qeydiyyat yeri üzrə təyin olunması hissəsi bu layihə ilə ləğv edilir. Layihə qəbul edildikdən sonra faktiki yaşadığı ünvan nəzərə alınmaqla, ünvanlı sosial yardım almaq üçün müraciət oluna biləcək. Həmçinin yeni layihə ünvanlı sosial yardımla bağlı neqativ təşəbbüslərin aradan qalxmasına xidmət edəcək. Artıq daha çox ailə ünvanlı sosial yardımdan faydalana biləcək. Yeni layihədə müsbət məqamlardan biri də ünvanlı sosial yardım üçün müraciət edən vətəndaşlardan tələb olunan sənədlərin sayının minimuma endirilməsidir. Artıq müraciət edən şəxs sadəcə ailə tərkibi haqqında məlumat verməli olacaq və digər sənədlər elektron qaydada bazadan götürüləcək. Bu layihə qəbul ediləndən sonra Nazirlər Kabinetinin ünvanlı dövlət sosial yardımın təyin olunması ilə bağlı qaydalarında da dəyişiklik edilməsi nəzərdə tutulur. Buna əsasən artıq götürülən kreditlər ailənin gəliri kimi nəzərə alınmayacaq".

Dəyişikliyə əsasən qanunun 9-cu maddəsinin (Sosial yardımın təyin olunması zamanı ailə tərkibində nəzərə alınmayan şəxslər) 9.0.1-ci bəndində "qocalar, əlillər və ya sağlamlıq imkanları məhdud uşaqlar üçün internat evlərində" sözləri "ahıllar və əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilir.

Müzakirələr zamanı çıxış edən parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirdi ki, ünvanlı sosial yardımın verilməsindənsə sahibkarlığı inkişaf etdirmək daha yaxşı olardı: "5 rayonda icra hakimiyyəti rəhbərlərinin həbsi sübut etdi ki, biz bu problemdən qurtulmaq üçün sahibkarlığı inkişaf etdirməliyik. Yaşam şəraitini yaxşılaşdırmaq və bu problemlərdən qurtulmaq üçün sahibkarlığın inkişafı daha məqsədəuyğundur".

Deputatlardan Əli Məsimli, Qüdrət Həsənquliyev, Aqiyə Naxçıvanlı, Azər Badamov, Jalə Əliyeva, Vüqar Bayramov, Azay Quliyev, Tahir Kərimli çıxış edərək dəyişikliklərin mütərəqqi xarakter daşıdığını və ünvanlı sosial yardımın əhatə dairəsinin genişləndirilməsinin vacibliyini bildirdilər. Deputatlar həmçinin digər müxtəlif təklifləri də irəli sürdülər.

Sənəd səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi.

Sonda Milli Məclisin Sədri Sahibə Qafarova qarşıdan gələn Ramazan bayramı və Respublika Günü münasibəti ilə Azərbaycan xalqını təbrik etdi və parlamentin plenar iclası başa çatdı.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan",***
***Fotolar Şamil Talıbovundur***

# Sumqayıtın möhtəşəm inkişafı, quruculuğu Heydər Əliyev

**Azərbaycanın müasir tarixinin yarım əsrdən artıq bir dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin respublikamıza istər birinci, istər ikinci rəhbərliyi dövrü tariximizin parlaq səhifələrini təşkil edir. Bu gün ölkəmizin harasına getsək, Heydər Əliyevin inkişafa və quruculuğa verdiyi töhfələrin, dövlətimiz və xalqımız qarşısındakı tarixi xidmətlərinin şahidi olarıq. Müasir Sumqayıtın inkişafında Heydər Əliyevin böyük rolu olub.**



Ulu Öndər Heydər Əliyev Sumqayıtın 25 illiyində




Prezident İlham Əliyev Sumqayıtın 70 illiyində

## Ulu Öndərin qayğısı ilə şəhər tarixinin ən əlamətdar səhifələri yazılıb

Tək Azərbaycanın deyil, bütün Cənubi Qafqazın mühüm sənaye mərkəzi və ən gözəl ünvanlarından biri kimi şöhrətini gündən-günə artıran Sumqayıtın tarixi ötən əsrin 30-cu illərindən başlayır. Sovet hökumətinin Abşeron yarımadasında növbəti sənaye mərkəzi yaratmaq barədə qərarından irəli gələrək 1939-40-cı illərdə Sintetik Kauçuk, Boruyayma və Kimya zavodlarının bünövrəsi qoyulur. Böyük Vətən müharibəsinin başlaması ilə bütün tikinti işləri yarımçıq qalır. 1941-ci ildə istilik elektrik stansiyası işə düşür. 1945-ci ildə Kimya zavodu ilk məhsulunu verir.

1949-cu ildə isə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Sumqayıta şəhər statusu verilir. Beləliklə, qəsəbə olaraq yaranan Sumqayıt getdikcə sənaye mərkəzinə çevrilməyə başlayır. 1952-ci ildə Boruyayma zavodu ilk məhsulunu buraxır. Vaxtilə tikintisi dayanmış Sintetik Kauçuk zavodu da işə salınır və ilk dəfə neftdən etil spirti əldə edilir. 1955-ci ildə isə Alüminium zavodu işə düşür. 60-cı illərdə Polimer tikinti materialları kombinatı, Superfosfat zavodu tikilərək istehsala başlayır. Bütün bunlara paralel olaraq elmi-tədqiqat institutları və mədəniyyət mərkəzləri tikilir, şəhər infrastrukturu inkişaf etdirilir.

Bu gün öz intibahının yeni mərhələsini yaşayan, 70 yaşını geridə qoyan Sumqayıtın Sovetlər Birliyi dövründə inkişafı və nəinki keçmiş SSRİ-də, bütün dünyada tanınması Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövrdə Heydər Əliyevin böyük qayğısı sayəsində şəhər tarixinin ən əlamətdar səhifələri yazılıb. Sumqayıtlılar Ulu Öndərin xüsusi diqqət və qayğısını hər zaman hiss ediblər. Şəhərin sosial-iqtisadi inkişafında, sənayenin formalaşmasında, elmin, təhsilin, mədəniyyətin tərəqqisində bu dahi insanın əvəzsiz xidmətləri danılmaz faktdır. Ölkəmizə birinci rəhbərliyi müddətində 16 dəfə Sumqayıtda olan Heydər Əliyevin hər səfəri şəhərin tarixinə mühüm hadisə kimi yazılıb.

Qeyd etdiyimiz kimi, müasir Sumqayıtın təməli ötən əsrin 40-cı illərinin sonunda qoyulsa da, məhz Ulu Öndər Heydər Əliyevin birinci dəfə ölkəmizə rəhbərliyi illərində bu şəhərə yeni nəfəs verildi. Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər seçiləndə Sumqayıtda əsas etibarilə metallurgiya və kimya müəssisələri var idi. Qısa müddətdə məhz Heydər Əliyevin təşəbbüsü ilə yüngül sənaye müəssisələri və sənayenin digər sahələri inkişaf etdirildi, yeni istehsal sahələri istismara verildi. Məsələn, 70-ci illərin əvvəllərində əhalinin məişət kimyası mallarına olan tələbatını maksimum ödəmək məqsədilə Zaqafqaziyada ilk dəfə olaraq Sumqayıt Məişət Kimyası Zavodu yaradıldı, “Superfosfat” zavodunda yüksək texnologiya əsasında inşa edilərək dənəvər superfosfat gübrəsi istehsalatı işə salındı. 1970-73-cü illərdə “Üzvi sintez” zavodunda bir-birinin ardınca qliserin, benzol, izobutilen və poliizobutilen, həmçinin xlor və diafraqma üsulu ilə kaustik soda istehsalı sexləri fəaliyyətə başladı, 1974-cü ildə Sintetik Kauçuk zavodunda yüksək markalı kauçuk istehsal edən sexin yenidən qurulması ilə onun istehsal gücü xeyli artırıldı. Ümumiyyətlə, 1969-82-ci illərdə Ulu Öndərin rəhbərliyi altında Sumqayıtda bir çox müəssisələr istifadəyə verilmişdir. Bunlardan Kompressorlar zavodunu, Üst trikotaj və Xovlu İplik fabriklərini, Süd və Yeyinti məhsulları kombinatlarını misal göstərmək olar.

1974-cü ildə Sumqayıtın yaradılmasının 25 illik yubiley tədbirində çıxış edən Heydər Əliyev kimyaçıların heç də asan olmayan, gərgin, fədakar əməyini, əldə olunmuş nailiyyətləri yüksək qiymətləndirməklə yanaşı, kimya sənayesinin prioritet inkişaf istiqamətləri barədə fikirlərini söyləyərək, qarşıda duran vəzifələrlə bağlı kimyaçılara gələcək üçün fəaliyyət proqramı ola biləcək dəyərli tövsiyələrini də vermişdi. Bundan sonra, 1975-76-cı illərdə Heydər Əliyev Sumqayıtın neft-kimya kompleksi üçün ən yeni texnologiyalar əsasında yaradılmış, Almaniya və Çexoslovakiya istehsalı olan EP-300 qurğusunun - layihə gücü etilenə görə 300 min, propilenə görə isə 138 min ton olan həmin nadir kompleksin əldə edilməsi üçün Moskvaya müraciət etmişdi. Dahi rəhbər özünəməxsus uzaqgörənliklə həmin kompleksin respublikamızın iqtisadiyyatı üçün böyük əhəmiyyəti və perspektivi olduğunu yaxşı bilirdi. Lakin Kreml rəhbərləri həmin nadir kompleksin xaricdən alınması üçün külli miqdarda vəsait tələb edildiyini, buna isə, guya, SSRİ-nin imkanı olmadığını əsas gətirərək, Azərbaycanın müraciəti ilə bağlı heç bir tədbir görmürdü.

Belə olduqda hər zaman vəziyyəti düzgün qiymətləndirməyi və müvafiq qərar qəbul etməyi məharətlə bacaran Heydər Əliyev respublikamızın neft-kimya sənayesinin yeni inkişaf mərhələsinə qaldırılması, bu sahənin ixrac məhsullarının daha yüksək keyfiyyətinə nail olmaq məqsədilə 70-ci illərin sonlarında SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini N.Tixonovu respublikamıza dəvət etmişdi. Məhz bundan sonra çox keçmədən İttifaq rəhbərliyi Heydər Əliyevin təklifini nəzərə alaraq, xaricdən böyük həcmdə valyuta ilə alınan EP-300 texnoloji kompleksinin Sumqayıtda inşasına qərar verdi. Artıq 1981-ci ildə həmin müasir texnoloji kompleksin Azərbaycana gətirilərək, Sumqayıtda inşasına başlanılması Heydər Əliyev dühasının, onun müdrik iqtisadi siyasətinin böyük qələbəsi idi.

1969-82-ci illərdə Ulu Öndərin rəhbərliyi altında Sumqayıtda digər müəssisələr istifadəyə verilmişdi. Bunlardan Kompressorlar zavodunu, Üst trikotaj və Xovlu İplik fabriklərini, Süd və Yeyinti məhsulları kombinatlarını, 20-dən çox orta məktəbi, uşaq bağçalarını, Ü.Hacıbəyov adına “Kimyaçılar” Mədəniyyət sarayını və başqa obyektləri misal göstərmək olar.






70-ci illərdə əsaslı tikintinin geniş miqyas alması nəticəsində Sumqayıt nəhəng tikinti meydançasına çevrilmişdi. Şəhərə gələn qonaqlar, xarici nümayəndələr burada aparılan nəhəng quruculuq prosesinin miqyası və vüsətinə heyran qalırdılar. Həmin illərdə Sumqayıtda hər il 80 min kv.m. mənzil sahəsi tikilib istifadəyə verilirdi. Hazırda fəaliyyət göstərən istehsalat sahələrinin çoxu, 40-dan artıq ümumtəhsil məktəbi, uşaq tərbiyə müəssisələri, saysız-hesabsız mədəniyyət, məişət xidməti, ticarət obyektləri, səhiyyə ocaqları məhz Ümummilli Liderin o dövrdəki məqsədyönlü siyasətinin bəhrələridir.

1970-80-ci illərdə Sumqayıt öz iqtisadi potensialına görə SSRİ məkanında tanınmağa başladı. Onun istehsal etdiyi məhsullar ölkənin 700 şəhərinə ixrac olunurdu. Bütün bunlar Ulu Öndərin Sumqayıta olan münasibətini nümayiş etdirirdi. Azərbaycan imperiya tərkibində olmasına baxmayaraq, bu cür inkişaf edirdi. Ən əsası respublika rəhbərinin diqqət və qayğısı sayəsində şəhər əhalisinin rifahı durmadan yüksəlirdi. Adamlar yaradıcı əməkləri ilə şöhrət qazanır, ucalırdılar. Sumqayıt keçmiş Sovetlər Birliyində dostluq, qardaşlıq, metallurqlar, kimyaçılar, energetiklər, inşaatçılar, əmək qəhrəmanları şəhəri kimi şöhrət qazanmışdı.

Heydər Əliyev daim Sumqayıtda çalışan sadə zəhmət adamlarının əməyini yüksək qiymətləndirir, onların keçmiş SSRİ-nin ən yüksək orden və medallarla, müxtəlif fəxri adlarla təltif olunmasına nail olurdu. Şəhəri qurub-yaradan insanlar öz növbəsində əməyi daim uca tutan Heydər Əliyevə xüsusi bir rəğbət bəsləyir, onu özlərinin himayədarı kimi qəbul edirdilər.

Heydər Əliyev vaxtaşırı olaraq Sumqayıtda olur, şəhər fəalları ilə görüşür və onları narahat edən problemlərlə maraqlanırdı. Qaldırılan hər bir problem diqqətsiz qalmırdı. Beləliklə, Heydər Əliyevin xüsusi diqqəti və qayğısı ilə 70-80-ci illərdə Sumqayıt öz inkişafının yüksək mərhələsinə qədər qoymuşdu. Rəhbərlikdə olduğu illərdə sumqayıtlılar Ulu Öndərin xüsusi diqqət və qayğısını hər zaman hiss etmişlər. Sumqayıtın sosial-iqtisadi inkişafında, sənayenin formalaşmasında, elmin, təhsilin, mədəniyyətin tərəqqisində onun əvəzsiz xidmətləri danılmaz faktdır. Rəhbərliyi dövründə 16 dəfə Sumqayıtda olan Heydər Əliyevin hər səfəri böyük tarixi hadisə olmuşdur.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə də əvvəlki kimi Sumqayıta daim diqqət və qayğısını əsirgəmirdi. Bu qayğının nəticəsində Sumqayıt yenidən özünün dirçəliş dövrünə qədəm qoydu. 1993-cü il dekabrın 18-də Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın Prezidenti kimi ilk dəfə Sumqayıta gəlmiş, şəhərdə quraşdırılmış yeni telefon stansiyasının açılışında iştirak etmiş, Tarix muzeyində olmuş, “Şəhidlər xiyabanı” kompleksini ziyarət etmiş, icra hakimiyyətinin işçiləri ilə görüşərək tapşırıq və tövsiyələrini vermişdi. Ulu Öndərin uzaqgörən siyasəti, verdiyi tövsiyə və tapşırıqlar şəhərin sosial-iqtisadi inkişafına böyük təkan vermişdi. Müstəqillik illərində Heydər Əliyev 6 dəfə Sumqayıtda olmuş, müxtəlif tədbirlərdə iştirak etmiş, şəhər ictimaiyyəti ilə görüşmüşdür. Bütün bunlar Ulu Öndərin Sumqayıta və sumqayıtlılara diqqətinin bariz təzahürü idi.

Məhz Ümummilli Liderin müdrik və uzaqgörən iqtisadi inkişaf modelinin nəticəsi olaraq ötən əsrin 90-cı illərində Sumqayıtın yeni ictimai-iqtisadi münasibətlər sisteminə adaptasiyası sürətləndi. Şəhərin sənaye potensialının bərpası, mövcud müəssisələrin modernləşdirilməsi, elmi innovasiyaların tətbiqinin sürətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər tez bir zamanda öz müsbət nəticəsini göstərməyə başladı. Həmin vaxt Ulu Öndərin şəxsi dəstəyi ilə xarici investisiya cəlb edilməklə Sumqayıtda iri layihə həyata vəsiqə qazandı: kimya sənayesinin gələcək inkişafında əvəzsiz rol oynayacaq Buxar-generator qurğusu inşa edildi.

Ulu Öndərin təşəbbüsü ilə 2001-ci ildə Azərbaycan Sənaye İnstitutunun bazasında Sumqayıt Dövlət Universitetinin, Politexnik Texnikumunun bazasında isə Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialının yaradılması şəhər təhsilinin həyatında əlamətdar hadisələrdir.

## 16 ildə 27 səfər

Ümummilli Liderin şəhərlə bağlı qarşıya qoyduğu vəzifə belə idi ki, Sumqayıt yenidən ənənəvi sənaye kompleksi kimi bərpa edilsin, yerli kadr potensialına söykənərək müasir müəssisələr açılsın. Ən vacibi isə Sumqayıtda insanların rahat yaşamaları üçün müvafiq şərait yaradılsın və yeni iş yerləri açılsın, bununla da Sumqayıt yenidən seçilən bir şəhərə çevrilsin.

Son 16 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi islahatlar Sumqayıtla bağlı Ulu Öndərin qarşıya qoyduğu vəzifələrin sürətlə həyata keçirilməsini təmin edib. Ona görə də əminliklə demək olar ki, bu gün Sumqayıt Heydər Əliyevin arzuladığı bir şəhərə çevrilib. Bütün bunlar həm də onu göstərir ki, Sumqayıtın tarixi ənənələr əsasında inkişaf edərək nəinki Azərbaycanın və Cənubi Qafqazın, ümumən, Avropanın iri sənaye mərkəzlərindən birinə çevrilməsi, Bakı şəhəri ilə tam rəqabət aparmaq imkanına malik olması Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla davam etdirən və dövrün tələbinə uyğun zənginləşdirən Prezident İlham Əliyevin müəyyənləşdirdiyi əsas hədəflərdəndir. Ona görə də bu gün Sumqayıt Prezident İlham Əliyevin daim diqqət və qayğısını duyur və hiss edir. Bunu Prezident İlham Əliyevin son 16 ildə Sumqayıta 27 dəfə səfər etməsi də göstərir. Dövlət başçısının hər səfəri şəhərin yüksəlişində yeni mərhələnin əsasını qoyub, yeni inkişaf planlarının həyata keçirilməsinə təkan verib. Bu barədə danışan Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov deyir: “Sumqayıtın Ulu Öndərin müəyyən etdiyi yolla inkişafının, Cənubi Qafqazın sənaye mərkəzinə çevrilməsinin müəllifi möhtərəm Prezident İlham Əliyevdir. Bir vaxtlar Sumqayıtın şöhrətini dünyaya çatdıran unudulmaz Heydər Əliyevin yolunu layiqincə davam etdirən Prezident İlham Əliyev şəhərimizin yeni intibahının memarıdır.





Cənab Prezidentin indiyədək şəhərimizə etdiyi hər bir səfər Sumqayıtın həyatında tarixi hadisəyə çevrilib, onun yüksəlişinə yeni təkan verib. İlham Əliyevin hər gəlişi Sumqayıtın tarixinə böyük hərflərlə yazılmaqla bərabər, bu şəhərin tərəqqisini şərtləndirən əsas amilləri bir daha aydın şəkildə müəyyənləşdirmiş və qətiləşdirmişdir”.

## Sumqayıt qeyri-neft sektorunun əsas inkişaf ünvanıdır

Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasının nəticəsi olaraq ölkənin makroiqtisadi göstəricilərində şəhərin xüsusi çəkisi yüksəlib, sahibkarlığın inkişafının daha da sürətləndirilməsi, istehsal və emal müəssisələrinin fəaliyyətinin bərpası və genişləndirilməsi, iqtisadi və sosial-mədəni infrastruktur obyektlərinin yenidən qurulması istiqamətində uğurlu nəticələr qazanılıb. Xüsusən iqtisadi siyasətin mühüm tərkib hissəsi olan sənayeləşmənin həyata keçirilməsi nəticəsində şəhərdə yeni sənaye sahələri yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, ixrac potensialı yüksəlib.

Son illərdə gücü 525 MVt olan Elektrik stansiyası, “Sumqayıt-3” yarımstansiyası tikilmiş, “Azərkimya” İB-nin müəssisələri yenidən qurulmuş, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin “Azgüntex” Zavodu, tərkibinə çörək zavodu, taxıl anbarı, dəyirman və logistik mərkəz daxil olan “Sağlam qida” Aqrar-Sənaye Kompleksi, “Azərsun Holdinq”in kağız və karton emalı kombinatı və yağ istehsalı fabriki, “Gilan” Tekstil Parkı, Mis Emalı Zavodu, “Alyans Tekstil” MMC-nin uniformalar istehsalı fabriki, “Azkontakt” MMC-nin beton boru və beton döşəmə daşı istehsalı, “Texnoil” MMC-nin mühərrik yağları istehsalı müəssisələri yaradılmış, Kimya Sənaye Parkında İnşaat Kimyəviləri Zavodu, “Tabaterra” QSC-nin tütün məmulatları istehsalı fabriki, Bakı Əlvan Metallar və Ferroərintilər Zavodu, pestisid və aqro-kimyəvi məhsulları, xortum və fitinq birləşmələri, sürtgü yağları, polipropilen qurğusu, elektron təhsil avadanlığı, şüşə və saxsı məmulatları istehsalı müəssisələri, Məlumatların Emalı Mərkəzi, Sumqayıt Texnologiyalar Parkında müxtəlif istehsal sahələri üzrə ixtisaslaşmış zavodlar, “Azərtexnolayn” MMC-nin polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsalı zavodları, “Aqrokimya Azərbaycan” MMC tərəfindən pestisidlər istehsalı zavodu istifadəyə verilmişdir.

Ötən ilin yanvarında Kimya Sənaye Parkında inşa olunmuş və ildə 650-660 min ton karbamid və 1 milyon ton ammonyak istehsal etmək gücünə malik olan “SOCAR karbamid” zavodunun və fevralda isə “SOCAR Polymer” layihəsi çərçivəsində inşa edilən yüksəksıxlıqlı polietilen zavodunun açılışı olmuşdur. Hazırda ölkədə qeyri-neft sektorunda ən böyük layihələr olan bu müəssisələrin ümumi dəyəri təxminən 1 milyard 200 milyon avro təşkil edir. Zavodlarda 900 nəfər daimi işlə təmin edilmişdir. İstehsal həcminin 70 faizinin ixrac üçün nəzərdə tutulduğu müəssisələrin fəaliyyəti ölkəyə hər il 200 milyon dollar məbləğində vəsaitin daxil olmasına imkan yaradır. Ümumiyyətlə isə, bu zavodların fəaliyyətə başlaması Sumqayıtın sənaye şəhəri kimi şöhrətini artırmaqla bərabər, respublikada gedən inkişaf proseslərinə layiqli töhfələr verir.

Xatırladaq ki, “SOCAR Polymer” layihəsi son 40 ildə öz miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk belə layihədir. İlkin mərhələdə “SOCAR Polymer” zavodlarında ildə 10 çeşiddə 184 min ton polipropilen və 4 çeşiddə 120 min ton yüksəksıxlıqlı polietilen istehsalı nəzərdə tutulur.

## Əzəmətli quruculuğu ilə öyünən şəhər

Sumqayıt son illərdə sanki yenidən tikilib. Prezident İlham Əliyevin tapşırığı və qayğısı ilə şəhərdə görülən kompleks abadlıq və quruculuq işləri, yeni və möhtəşəm infrastruktur layihələrinin həyata keçirilməsi, şəhər təsərrüfatının yenidən qurulması burada tamamilə yeni ab-hava yaradıb. Xüsusən 2015-ci ilin sonu, 2016-cı ilin əvvəllərindən həyata keçirilən layihələrin nəticəsində Sumqayıtın görkəmi tamamilə dəyişib, şəhərdə yeni infrastruktur yaradılıb. Hansı ki, bu infrastruktur uzun illər sumqayıtlılara ən yüksək standartlar əsasında xidmət edəcək.

Əzəmətli Heydər Əliyev Mərkəzi, Yeni Azərbaycan Partiyasının inzibati binası, Bayraq Muzeyi, Gənclər Mərkəzi, Şahmat Məktəbi Sumqayıtın yeni və möhtəşəm ünvanlarıdır. Bununla yanaşı, şəhərdə sosialyönümlü bir sıra infrastruktur layihələri də həyata keçirilmiş, o cümlədən Olimpiya və Paralimpiya İdman kompleksləri, əlil və şəhid ailələri üçün ümumilikdə 240 mənzilli 5 yaşayış binası inşa edilib, 1 nömrəli Şəhər Mərkəzi Xəstəxanasının, “Kimyaçılar” Mədəniyyət Sarayının, Sumqayıt Dövlət Dram Teatrının, Tarix Muzeyinin, 1 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin, Musiqi Məktəbinin binaları əsaslı təmir olunub, “ASAN xidmət” mərkəzi fəaliyyətə başlayıb.

Son illərdə şəhərin əksər tibb müəssisələri də əsaslı təmir olunub. 1 nömrəli Doğum evi, 1 və 2 nömrəli Qadın məsləhətxanaları, 1 və 4 nömrəli Şəhər poliklinikaları, Uşaq Xəstəxanasının infeksion şöbəsi, Vərəm Xəstəxanası, 2 nömrəli Uşaq poliklinikası, 3 nömrəli Şəhər xəstəxanasının poliklinika şöbəsi əsaslı təmir olunub. 1 nömrəli Uşaq poliklinikası, 2 nömrəli Şəhər poliklinikası, Onkoloji Xəstəxana, 4 nömrəli Şəhər xəstəxanasında cari təmir işləri aparılıb. 1 və 2 nömrəli Doğum evlərinin reanimasiya şöbələri müasir tibbi avadanlıqlarla təchiz olunub. 1 nömrəli Doğum evi 2018-ci ildən III səviyyəli Perinatal Mərkəz kimi fəaliyyət göstərir.

Sumqayıtın başqa bir möhtəşəm ünvanı isə Dənizkənarı Bulvardır. Şəhər dəniz sahilində yerləşsə də, burada heç vaxt bulvar olmayıb. Şəhərdə son illərdə reallaşan ən möhtəşəm layihələrdən biri də Xəzərin sahilində uzunluğu 4,2 kilometr, sahəsi 106 hektar olan, əhalinin istirahəti üçün bütün şərait yaradılan və müasir tələblərə cavab verən Dənizkənarı Bulvardır. 3 il əvvəl Madriddə keçirilən “Global Trade Leaders Club”un XXIV Beynəlxalq üstünlük və liderlik forumunda Sumqayıtın yeni salınmış bulvarı “İnternational Award for Excellence & Leadership” mükafatına layiq görülmüşdür. Azərbaycan Prezidenti İlham Əliyevin möcüzə adlandırdığı Sumqayıt Bulvarının dünyanın diqqət mərkəzinə düşməsi olduqca qürurverici haldır.

Şəhərdəki Heydər parkı, Lüdviqshafen parkı, Sülh prospekti və Sahil küçəsi əsaslı təmir olunaraq yenidən qurulub. Heydər parkının ərazisi 15 min kvadratmetr genişləndirilib və burada Poeziya Evi yaradılıb.

Prezident İlham Əliyevin Sumqayıta sayca 24-cü səfəri zamanı isə dövlət başçısının iştirakı ilə Muğam Mərkəzi və “Nizami” kinoteatrının yeni binası istifadəyə verildi. Dövlət başçısı həmçinin bulvarın yeni salınmış hissəsində yaradılan şəraitlə tanış olub. Xatırladaq ki, Sumqayıt Bulvarı şəhərin şimal-qərb istiqamətində 1 kilometr uzunluğunda, 400 metr enində, ümumilikdə isə, 40 hektar sahədə genişləndirilib. Beləliklə, bu istirahət məkanının sahəsi 106 hektara, uzunluğu isə 5,2 kilometrə çatdırılıb. Ərazidə geniş miqyasda yaşıllıq sahəsi salınıb, müasir işıqlandırma sistemi qurulub. Park boyu 1 kilometr uzunluğunda yeni yol inşa olunub. Kompleksin yeni salınan hissəsində bütün yaş qruplarının istirahəti üçün yüksək şərait yaradılıb.

Onu da qeyd edək ki, son 4 ildə şəhərdə 1100-dən artıq çoxmənzilli yaşayış binasına yeni dam örtüyü vurulub. Həmin binalarda 400-dən çox istismar müddəti bitmiş liftlər yeniləri ilə əvəz olunub, 3500 girişə yeni dəmir qapılar qoyulub. Şəhərin ictimai nəqliyyatı da yenidən qurulub və marşrut xətlərinə 206 Türkiyə istehsalı olan yeni avtobus buraxılıb. Liftlərə xidmət üçün “Onlayn” Dispetçer mərkəzinin, həmçinin ictimai nəqliyyatda pulsuz internet şəbəkəsinin yaradılması Cənubi Qafqazda ilk olaraq Sumqayıtda həyata keçirilən yeni texnoloji layihələrdir.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov bildirir ki, Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində şəhərdə həyata keçirilən abadlıq, quruculuq və tikinti işləri sumqayıtlılara xoş ovqat və sakit həyat tərzi bəxş edib. Eyni zamanda həyata keçirilən genişmiqyaslı uğurlu layihələr şəhərin simasını tamamilə dəyişib









# ideyalarının və İlham Əliyev kursunun təntənəsidir

## 70 yaşını geridə qoyan gənc şəhər

Ötən il noyabrın 19-da şəhərin 70 illik yubileyinin təmtəraqlı şəkildə qeyd edilməsi, ilk növbədə, dövlət başçısının Sumqayıta olan yüksək diqqət və qayğısının təzahürü idi. Xatırladaq ki, fevralın 14-də Prezident İlham Əliyev "Sumqayıt şəhərinin 70 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzalamışdı. Müvafiq tədbirlər planına əsasən, həmin vaxtdan başlayaraq müxtəlif səviyyələrdə irili-xırdalı saysız-hesabsız tədbirlər keçirildi.

Prezident İlham Əliyevin ötən il noyabrın 22-də Sumqayıta etdiyi səfər 70 illiklə bağlı bütün tədbirlərin zirvə nöqtəsi oldu. Sumqayıt Dövlət Dram Teatrında şəhərin 70 illiyinə həsr olunmuş tədbirdə çıxış edən Prezident Sumqayıta daim diqqət və qayğı göstərildiyini dedi: "Ulu Öndərin Sumqayıt şəhərinə də həmişə çox isti münasibəti olmuşdur. Həm sovet vaxtında, həm də müstəqillik dövründə dəfələrlə Sumqayıtda olmuşdur. Mən də bu siyasəti davam etdirirəm. Mənim Sumqayıta bugünkü səfərim 15 il ərzində sayca 24-cü səfərdir. Yəni bu özlüyündə göstərir ki, Sumqayıta daim diqqət, qayğı göstərilir".

Sumqayıtın 70 illik yubileyinə rəng qatan başqa bir əlamətdar hadisə isə Prezident İlham Əliyevin şəhərlə bağlı imzaladığı 9 sərəncam oldu. Bu sərəncamlarla Sumqayıt şəhərində 100 çoxmənzilli binanın dam örtüyünün dəyişdirilməsi, 1 nömrəli Şəhər tam orta məktəbi üçün 1800 şagird yerlik yeni binanın tikintisi, "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi, Mehdi Hüseynzadə adına Sumqayıt Şəhər Stadionunun yenidən qurulması məqsədilə müvafiq vəsait ayrıldı. Həmçinin şəhərin sosial-iqtisadi inkişafında xidmətlərinə görə, bir qrup sakinə fəxri adlar, ordenlər, "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" verildi. 4 nəfər isə Prezidentin fərdi təqaüdünü alacaq. Şəhərin sosial-iqtisadi inkişafında xidmətlərinə görə isə, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edildi.

Ümumilikdə 66 nəfər sumqayıtlı fəxri adlar və medallarla təltif olundu. Bu sərəncamlar Prezident İlham Əliyevin Sumqayıta və sumqayıtlılara yüksək diqqət və qayğısı kimi tarixə düşdü.

## Sumqayıt koronavirusla mübarizədə də nümunə göstərir

Azərbaycan sivil dünyaya açıq dövlətdir. İqtisadiyyatımız qlobal iqtisadi sferaya inteqrasiya şəraitində inkişaf edir, ölkəmizə turist axını artan xətlə yüksəlir, hər bir vətəndaşımız xarici səfərlərində sərbəstdir. Bu baxımdan fevralın sonunda artıq xeyli dövlətə ayaq basmış koronavirusun respublikamızda da qeydə alınması təəccüblü sayılmadı. Lakin əsas odur ki, Azərbaycan Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində ilk gündən koronavirusla mübarizənin ən effektiv nümunəsini ortaya qoyur.

Profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradılmasından tutmuş, sosial və məhdudlaşdırıcı izolizasiya tədbirlərinin həyata keçirilməsi, karantin rejiminin və hərəkət məhdudiyyətinin tətbiq olunması kimi qərarlar Azərbaycan dövlətinin ilk gündən koronavirusla mübarizəyə olduqca diqqətli yanaşmasının, zamanında operativ və təxirəsalınmaz addımlar atmasının göstəriciləri kimi tarixə düşdü.

Respublikamızda virusun qarşısının alınması ilə bağlı həyata keçirilən tədbirlər kəmiyyət və keyfiyyət baxımından kifayət qədər yüksəkdir. Təsadüfi deyil ki, istər virusa yoluxma, istərsə də sağalan vətəndaşlarımızın sayı baxımından vəziyyət qənaətbəxşdir. Respublikamızın əksər şəhər və rayonlarında göstəricilər ürəkaçandır. Bu baxımdan Sumqayıt şəhəri də əsl nümunələr yaradır.

Bu günlərdə Sumqayıtda olarkən öyrənirik ki, şəhərdə indiyədək cəmi 70-ə yaxın sakində koronavirusa yoluxma qeydə alınıb. Onların da böyük əksəriyyəti, yəni təxminən 50 nəfəri müalicə alaraq sağalıb. Mühüm məqamlardan biri odur ki, indiyədək Sumqayıtda müalicə prosesində iştirak edən bir nəfər həkim də virusa yoluxmayıb. Ona görə də respublikamızda virusa ən çox yoluxmanın qeydə alındığı şəhər və rayonların sırasında Sumqayıtın adı yoxdur.

Respublikamızın hər yerində olduğu kimi, Sumqayıt şəhərində də koronavirusa qarşı intensiv tədbirlər həyata keçirilir, sanitar-epidemioloji vəziyyət ciddi nəzarət altında saxlanılır. Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun sərəncamı ilə koronavirus epidemiyasına qarşı qabaqlayıcı tədbirlərin görülməsi ilə bağlı komissiya yaradılıb. Komissiya tərəfindən ilk gündən etibarən şəhər sakinləri arasında maarifləndirici tədbirlər həyata keçirilməyə başlanılıb, Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlara və müəyyənləşdirdiyi qaydalara əməl olunmasına ciddi şəkildə nəzarət həyata keçirilib. Bu məqsədlə şəhərdə mobil qruplar da yaradılıb. Mobil qruplar tərəfindən şəhərin müxtəlif yerlərində sakinlərin evdə qalması istiqamətində maarifləndirmə işlərinin həyata keçirilməsi nəticəsində karantin rejiminin pozulmasında ciddi problemlər baş verməyib. Lüzumsuz yerə nəqliyyat vasitəsi idarə edənlərə xüsusi karantin rejiminin tələblərinə əməl edərək "Evdə qal!" kampaniyasına qoşulmaq tövsiyə olunub. Xüsusi karantin rejimi tədbirlərinin gücləndirilməsi ilə bağlı Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçuları da polislə birgə xidmətə cəlb ediliblər.

Şəhərdə Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi tərəfindən xüsusi ayrılmış kommunal texnikalar gündəlik olaraq dezinfeksiya proseslərini həyata keçirir. Yaşayış məhəllələrində, binaların girişlərində, liftlərdə, ticarət şəbəkələrində, sənaye müəssisələrində gündəlik dezinfeksiya işləri aparılır. O cümlədən sakinlərin ən çox istifadə etdiyi məkanlar olan bankların, marketlərin girişləri, dayanacaqlar, ictimai nəqliyyat vasitələri tibbi ləvazimatlarla təmizlənir. Bu işlər hər gün qrafik əsasında həyata keçirilir. Şəhərin mərkəzi hissəsindən başlayaraq kvartal və mikrorayonlara doğru küçə və prospektlər mütəmadi olaraq texnikalar vasitəsilə yuyulur.









## Sumqayıtlılar Heydər Əliyev Fondunun təşəbbüslərinə fəal dəstək verirlər

Bu həssas günlərdə özünü qabarıq göstərən başqa bir məsələ isə respublikamızın hər yerində dövlət orqanları, ictimai təşkilatlar və ayrı-ayrı şəxslərin xeyriyyə və sosial aksiyalar həyata keçirmələridir. Məqsəd aztəminatlı ailələrin, ehtiyacı olanların, əlillərin, tənha yaşayanların karantin rejimi zamanı yarana biləcək sosial ehtiyaclarını təmin etmək, onlara maddi və mənəvi dəstək olmaqdır.

Karantin günlərində ilk nümunəni isə Heydər Əliyev Fondu göstərdi. Belə ki, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən, fond tərəfindən Bakıda və regionlardakı körpələr və uşaq evlərinə, internat məktəblərinə, Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinə, Uşaq Psixonevroloji Mərkəzinə, eləcə də Bakıdakı və regionlardakı Psixonevroloji sosial xidmət müəssisələrinə koronavirusla mübarizə tədbirləri çərçivəsində dezinfeksiyaedici vasitələr, maskalar və digər qoruyucu vasitələrdən ibarət yardımlar ayrılıb. Daha sonra fond tərəfindən bütün şəhər və rayonlarda aztəminatlı ailələr, yaşı 65-i ötmüş, habelə tənha vətəndaşlar üçün ərzaq yardımları göndərilib.

Sumqayıt Şəhər İcra Hakimiyyəti də Heydər Əliyev Fondunun xeyriyyə və digər sosial aksiyalarına qoşularaq fəal dəstək verməkdədir. Belə ki, xüsusi karantin müddətində indiyədək şəhərdə 22 mindən çox aztəminatlı, yaşı 65-dən yuxarı, habelə tənha və ehtiyacı olan ailələrə ərzaq məhsullarından ibarət yardım sovqatları paylanılıb. Ən mühümü odur ki, şəhərdə bu kimi sosial kampaniyalar davamlıdır. İndiyədək ehtiyacı olanlara 20 min ərzaq bağlaması verilib ki, bunun da 8500-ü Heydər Əliyev Fondu tərəfindən göndərilib.

Məlum olduğu kimi, koronavirus infeksiyasının Azərbaycanda yayılmasının qarşısını almaq və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etmək məqsədilə Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixli "Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanına əsasən, Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb. Sumqayıt ŞİH başçısı Zakir Fərəcov bu nəcib təşəbbüsə qoşularaq 6 aylıq əməkhaqqını Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianə edib. Həmçinin koronavirus infeksiyası ilə mübarizədə dövlətimiz və xalqımızla həmrəy olaraq şəhər İcra hakimiyyətində və onun tabeçiliyində olan qurumlarda çalışan işçilər könüllü olaraq biraylıq əməkhaqlarını Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianə ediblər.

Sumqayıt ictimaiyyəti, habelə şəhərin əlaqədar təşkilatları Heydər Əliyev Fondunun həyata keçirdiyi digər sosial aksiyalarda da fəallıq göstərirlər. Koronavirus pandemiyası ilə əlaqədar ölkədə xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlar üçün qan ehtiyatı azaldığı nəzərə alınaraq, Heydər Əliyev Fondu tərəfindən qanvermə aksiyası keçirilib. Sumqayıt ictimaiyyəti də fondun çağırışına və təşəbbüsünə qoşularaq qanvermə aksiyasında fəal iştirak edib.

Bir məsələni də qeyd edək ki, respublikamızın hər yerində biznes dairələri də həmrəylik nümayiş etdirərək sosial aksiyalarda yaxından iştirak edirlər. Koronavirusla Mübarizəyə Dəstək Fonduna da xeyli sayda iş adamı ianə edib. O cümlədən yerlərdə ərzaq yardımlarının edilməsinə də iş adamları öz töhfələrini verirlər. Lakin təəssüf ki, Sumqayıtdakı bəzi özəl müəssisələr, şəhərdəki bəzi ticarət mərkəzlərinin və istehsal sahələrinin hər kəsin tanıdığı sahibləri bu nəcib təşəbbüsə ilk gündən dəstək vermək istəməyiblər. Əlbəttə, heç kim özəl sektoru bu işə məcbur edə bilməz. Amma Sumqayıtın və sumqayıtlıların hesabına varlanan həmin iş adamları ən azından vətəndaşlıq mövqeyindən çıxış etməli və ölkə rəhbərliyinin həmrəylik təşəbbüsünü dəstəkləməliydilər. Belə ağır günlərdə öz maddi imkanından azacıq da olsa keçməyən, səxavətini əsirgəyən, bir nəfərə belə yardım etməyən həmin şəxslər, şübhəsiz ki, dar gündə vətəni də qoyub qaçarlar.

## Çinin 3 şəhərindən dost payı

Pandemiya dövründə şəhərlə bağlı başqa bir mühüm məqam ondan ibarətdir ki, Çinin Cucou, Myenyan və Sian şəhərləri dostluq əlaqələri saxladıqları Sumqayıta humanitar yardımlar göndəriblər. Bu barədə danışan Zakir Fərəcov dedi: "Cənab İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində ölkəmizin dünyanın müxtəlif siyasi qütblərində dayanan dövlətləri ilə sıx siyasi və iqtisadi münasibətləri formalaşıb. Bildiyiniz kimi, Çin iqtisadi göstəricilərinə görə, dünyanın ikinci dövlətidir. Xüsusilə qeyd edilməlidir ki, Çin rəhbərliyi Azərbaycana dostluq münasibəti bəsləyir. Prezident İlham Əliyevin ötən il Çinə səfəri zamanı bunun bir daha şahidi olduq. Məhz iki ölkə arasındakı sıx münasibətlərin nəticəsidir ki, Sumqayıtın Çinin bir sıra şəhərləri ilə dostluq münasibətləri inkişaf edir. Əlbəttə, Azərbaycan güclü dövlətdir. Prezident İlham Əliyevin sayəsində Azərbaycan hər baxımdan güclü imkanlara malikdir. O cümlədən respublikamızın inkişaf etmiş səhiyyə sistemi də formalaşıb. Bu gün Azərbaycan kənardan heç bir yardım olmadan bütün çətinlikləri dəf etmək iqtidarındadır. Çinin Cucou, Myenyan və Sian şəhərlərindən göndərilən yardımlar isə dost payıdır. Bu yardımlar göstərdi ki, Çin dövləti Azərbaycanla dostluq əlaqələrinə böyük önəm verir".

Aprel və may aylarında göndərilən tibbi ləvazimatlar bu gün Azərbaycan Hava Yollarının Karqo Terminalında qəbul olunub və dezinfeksiya olunduqdan sonra Sumqayıt şəhərinə gətirilib. Tibbi ləvazimatlar şəhərdə koronavirusla mübarizədə istifadə olunmaqdadır.






## 2 ayda 3 Prezident səfəri

Ümumiyyətlə, Sumqayıtın həyatında əlamətdar hadisələr çoxdur. Belə hadisələrin sırasına son dövrlərdə biri də daxil oldu. Bu, Prezident İlham Əliyevin aprel-may aylarında 3 dəfə şəhərə səfər etməsidir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak ediblər.

Aprelin 24-də Prezident İlham Əliyevin iştirakı ilə Sumqayıt şəhərinə çəkilən magistral qaz kəmərinin açılışı olub. Qeyd edək ki, Sumqayıt əhalisi Qaradağdan 12 düymlük 12 atmosfer təzyiqli xətlə qazla təmin olunurdu. Bir də Sumqayıtın sənayesi üçün Qaradağ-Digah-Şimal DRES xəttindən 30 atmosferlik bir xətt çəkilmişdi. Artan tələbat və Şimal DRES-də artım Sumqayıtın təmin olunması üçün müəyyən problemlər yaradırdı. Sumqayıtda böyük sənaye klasterinin yaradılması üçün qaz imkanları məhdud idi, hətta qış vaxtlarında çatışmazlıq olurdu. Buna görə də Prezident İlham Əliyevin göstərişi ilə 80 milyon manat vəsait ayrıldı və 60 kilometrlik yeni Ağdərə-Sumqayıt xətti çəkildi. Bu, imkan verir ki, Sumqayıt-Abşeron klasteri dayanıqlı, yüksəktəzyiqli qazla təmin edilsin. Ən əsası isə bu, gələcəkdə Sumqayıtın inkişafı üçün də böyük imkanlar yaradır.

Həmin gün Sumqayıt şəhər ictimaiyyətinin bir qrup nümayəndəsi ilə görüşən Prezident İlham Əliyev Sumqayıtı regionun çox müasir sənaye şəhərlərindən biri adlandıraraq deyib: "Sumqayıt inkişaf edir, əhali artır, sənaye potensialı möhkəmlənir. Sumqayıt, doğrudan da, bu bölgənin, regionun çox müasir sənaye şəhərlərindən biridir. Eyni zamanda, əlbəttə, şəhərin infrastrukturu yenilənir, şəhər abadlaşır, insanlar üçün gözəl imkanlar yaradılır. Təkcə Sumqayıt Bulvarını qeyd etmək kifayətdir, qısa müddət ərzində gözəl bir istirahət zonası yaradılmışdır. Bu gün Sumqayıt parklar, bağlar şəhəridir".

Mayın 12-də isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sumqayıtda "Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska fabrikinin və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında iştirak ediblər. Tibbi maska fabrikində birdəfəlik istifadə üçün maskalar istehsal olunacaq. İlk mərhələdə fabrikdə gün ərzində 140 min ədəd maska istehsalı nəzərdə tutulur. May ayının sonunadək burada əlavə avadanlıq quraşdırılacaq. Bu isə, öz növbəsində, istehsal gücünü artırmağa imkan verəcək. Beləliklə, fabrikdə mərhələli şəkildə bu göstərici 300 min ədədədək artırılacaq. Hazırda istehsalat prosesinə cəlb olunmuş işçilərin sayı 30 nəfərdir, əlavə avadanlıq quraşdırıldıqdan sonra isə 50 nəfərə çatacaq.

Müəssisədə birdəfəlik istifadə üçün qoruyucu kombinezonların da istehsalına başlanılıb. Gün ərzində 6 min ədəd qoruyucu kombinezonun istehsalı nəzərdə tutulur. Müəssisənin istifadəyə verilməsi yeni iş yerlərinin açılması baxımından da böyük əhəmiyyət daşıyır. Belə ki, buradakı istehsalat prosesinə 210 işçi cəlb olunub. Yerli tələbat ödənildikdən sonra həm tibbi maskaların, həm də qoruyucu kombinezonların ixracı da nəzərdə tutulur. Beləliklə, bu cür müəssisələrin fəaliyyətə başlaması Azərbaycanın ixrac potensialının artırılmasına xidmət etməklə bərabər, qeyri-neft sektorunun inkişafı baxımından da böyük rol oynayır. Müəssisənin işçiləri ilə görüşdə bir daha Sumqayıtın inkişafına toxunan Prezident İlham Əliyev şəhəri müasir, həm də təmiz sənaye mərkəzi adlandırıb: "Sovet dövründə Sumqayıtın yanından keçərkən maşında oturanlar pəncərələri bağlayırdılar, çünki o iydən insanların gözü yaşarırdı. Yəni Sumqayıt, doğrudan da, böyük bir ekoloji bəla mərkəzi idi. Çünki kimya sənayesinin sürətli inkişafı və bir çox hallarda ekoloji standartlara riayət edilməməsi nəticəsində Sumqayıtın ekoloji vəziyyəti çox ağır idi və burada bir neçə növ xəstəliklər geniş vüsət almışdı. Biz isə Sumqayıtı müasir, təmiz sənaye mərkəzinə çevirdik. Bu gün Sumqayıtın havası Bakının havasından daha təmizdir. Sumqayıtda aparılan yaşıllaşdırma işləri, yeni parkların salınması, ekoloji tədbirlərin görülməsi, uzun illər sumqayıtlıları narahat edən Acıdərə kanalının tamamilə təmizlənməsi və yenidən qurulması xüsusi əhəmiyyət daşıyır. Ona görə bir sənaye şəhəri kimi Sumqayıtın siması tamamilə dəyişib və bu gün ən yüksək standartlara cavab verir".

## Pandemiya dövründə yüksəliş

Koronavirus pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, Sumqayıtın inkişaf və quruculuğu davamlıdır. Bunu statistik götəricilər də təsdiq edir. Belə ki, bu ilin birinci rübündə şəhər üzrə ümumi daxili məhsul istehsalı 636,4 milyon manat təşkil etmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 38,1 faiz çoxdur. Hesabat dövründə şəhər üzrə sənaye məhsulunun istehsalı 490,5 milyon manat ( ötən ilin hesabat dövrü ilə müqayisədə 42,4 faiz çox) təşkil etmişdir. Xüsusən kimya, yeyinti və yüngül sənaye istehsalında artımlar var. Rüb ərzində şəhərdə 53,8 milyon manatlıq sərmayə yatırılmışdır ki, bu da 2019-cu ilin birinci rübündən 7 faiz çoxdur.

Bu dövrdə şəhərdə orta aylıq əməkhaqqı 563,4 manat təşkil etmişdir. Ötən ilin eyni dövründə bu rəqəm 433,2 manat olmuşdur. Yeni açılan iş yerlərinin sayı isə ilk üç ayda 3583 nəfər olmuşdur. Bu da, öz növbəsində, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə çoxdur.

İlin birinci rübü ərzində şəhər büdcəsinin icrası sahəsində də vəziyyət qənaətbəxşdir. Belə ki, hesabat dövründə gəlirlər 9 milyon 524,8 min manata qarşı 11 milyon 38,5 min manat, yəni 15,9 faiz çox olmuşdur.

Şəhərdə abadlıq və quruculuq işləri də davamlıdır. Hazırda Sumqayıtda həyata keçirilən əsas layihələrdən biri Mehdi Hüseynzadə adına Şəhər Stadionunun yenidən qurulmasıdır. Ölkəmizin dördüncü ən böyük stadionunun yenidən qurulması üzrə işlər dövlət başçısının sərəncamı əsasında aparılır. Sumqayıt stadionu şəhər parkının ən gözəl guşəsində yerləşir. Onun tribunalarından Xəzər sahillərinə çox gözəl mənzərə açılır. Stadionda yenidənqurma işləri cari ilin sonuna qədər başa çatacaq.

Sumqayıtın ən böyük ekoloji problemlərindən olan "Acıdərə" kanalının boruya alınması işləri davam etdirilir. Dövlət başçısının tapşırığına uyğun olaraq hazırda "Acıdərə" kanalı qapalı sistemə keçirilməklə yeni məcraya salınır. İnşa edilən beton kanalizasiya sisteminin bir hissəsi artıq tam hazırdır. Qeyd edək ki, "Acıdərə" kanalına kanalizasiya suyu axıdılır. Kanalın üzəri açıq olduğundan ətrafı dözülməz üfunət iyi bürüyürdü. Dövlət vəsaiti hesabına görülən işlər başa çatdıqdan sonra 20 minə yaxın sakinin yaşadığı ərazidə yeni kanalizasiya sistemi yaradılacaq. Bu da mövcud problemin birdəfəlik həllinə gətirib çıxaracaq.

Dövlət başçısının sərəncamına əsasən, 1 nömrəli Şəhər tam orta məktəbi üçün 1800 şagird yerlik yeni binanın tikintisi də davam etdirilir.

Prezident İlham Əliyevin bu ilin yanvarın 27-də imzaladığı "Sumqayıt şəhərinin qəsəbələrində və yeni yaşayış massivlərində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 6,4 milyon manat ayrılıb. Layihə çərçivəsində Sumqayıt şəhərinin 135 min nəfər əhalisinin yaşadığı Corat, Hacı Zeynalabdin Tağıyev qəsəbələrində, 21-ci mikrorayon ərazisində, həmçinin "Yaşıl Dərə", "Qurd Dərəsi", "Xəzər Bağları" yaşayış massivlərində və 5 məhəllədə ümumi uzunluğu 21,4 kilometr olan küçə və yolların təmirinin həyata keçirilməsi nəzərdə tutulurdu ki, artıq bu işlərin bir hissəsi yerinə yetirilib. Təmir işlərinin, ümumilikdə, əhatə edəcəyi sahə 150 min kvadratmetrdir.

Bütün bunlarla bərabər, hazırda şəhərdə yaşayış binalarının fasadlarının yenilənməsi və təmirə ehtiyacı olan digər yolların asfaltlanması işləri də həyata keçirilir. Beləliklə, Sumqayıt pandemiya dövründə də inkişafı və quruculuğu ilə nümunələr yaradır. Prezidentin diqqət və qayğısı olan yerdə təbii ki, belə də olmalıdır. Şəhər rəhbərliyi və qədirbilən Sumqayıt ictimaiyyəti bu ali diqqətə və qayğıya bundan sonra da özlərinin əməli işləri ilə layiqli cavab verəcək, dövlət başçısının etimadını uğurla doğruldacaqlar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan və Rusiya Xarici İşlər nazirlərinin telefon danışığı olub



Mayın 19-da Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun rusiyalı həmkarı Sergey Lavrov ilə telefon söhbəti olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında baş tutmuş telefon danışığından sonra verilmiş tapşırıqlara uyğun olaraq, Rusiya Federasiyasının Dağıstan Respublikasında Azərbaycan vətəndaşlarının yığılması ilə əlaqədar vəziyyəti və məsələnin həlli üçün hər iki ölkə tərəfindən əlaqəli şəkildə atılmalı addımları müzakirə ediblər.

Tərəflər ikitərəfli strateji münasibətlərin inkişafı, o cümlədən iqtisadi-ticari əlaqələrin, yükdaşımaların genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıblar.

Nazirlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi üzrə fikir mübadiləsi həyata keçiriblər. Elmar Məmmədyarov həmkarını ATƏT-in Minsk qrupunun həmsədrləri ilə keçirdiyi son videokonfrans formatında görüş barədə məlumatlandırıb.

# *Dmitri SAVELYEV:* "Hər hansı xalqda millətçiliyin hər hansı təzahürü qəbuledilməzdir"



Elə məsələlər var ki, onlara münasibətdə güzəştə getmək olmaz: istər faşizm üzərində Böyük Qələbənin 75 illiyinin bütün dünyada qeyd edildiyi günlərdə, istərsə də hər hansı başqa bir gündə. "Ölməz alay" aksiyası çərçivəsində ekstremistlər tərəfindən nasist canilərin fotoşəkillərinin yerləşdirilməsi barədə saytlarda yayılan xəbərlər tarixi hadisələrin dəyərləndirilməsində vurğuları qarışdırmağın yolverilməzliyi haqda bir daha düşünməyə vadar edir. Axı hətta faşizmdən ağır itkilər almış bəzi postsovet ölkələrində artıq çoxdan bəri məhz belə hadisələr dövlət siyasəti səviyyəsində baş verir.

Rusiya Dövlət Dumasının deputatı və Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev AZƏRTAC-a müsahibəsində qeyd edib ki, İkinci Dünya müharibəsi haqqında tarixi həqiqətlərə siyasi məqsədlər üçün cinayətkarcasına manipulyasiyalar son 75 ildir davam edir. Onun sözlərinə görə, Qərb siyasətçiləri faşizm üzərində Qələbədə Sovet İttifaqının rolunu azaldaraq dünyaya öz nöqteyi-nəzərlərini zorla qəbul etdirmək istəyirlər. Dmitri Savelyevin fikrincə, "tarixin belə "yenidən yazılmasının" məqsədi bütün xalqlarımızı birləşdirən simvolu - Böyük Qələbəni məhv etmək, postsovet məkanı ölkələrini, əsasən də Rusiyanı dünya siyasətinin hüquqsuz köləsinə çevirməkdir. Bizim ölkələrimizin möhkəmlənməsi, onların fasiləsiz inkişafı, əməkdaşlığı, dünyada nüfuzunun artması Qərbdə çoxuna sərf eləmir".

Dmitri Savelyev tarixi saxtalaşdırılmaların təhlükəsinin də adını çəkib. Onun sözlərinə görə, siyasi ab-havanın mürəkkəbləşməsi və beynəlxalq əməkdaşlığın parçalanması yeni münaqişələrə səbəb ola bilər. Rusiyalı parlamentari hesab edir ki, sülhün başlıca zəmanəti faşizm üzərində Qələbənin nəyin bahasına başa gəlməsi haqda xatirənin qorunması və onunla bağlı faktları hər hansı şəkildə təhrif etmək cəhdlərinə qarşı daimi mübarizədir.

Dmitri Savelyev belə dəyərlərin dəyişik salınması və Böyük Vətən müharibəsi haqqında həqiqətlərin yeni nəslin gözündə bağışlanmaz dərəcədə saxtalaşdırılmasına nümunə olaraq, Ermənistanda milli qəhrəman dərəcəsinə qaldırılan kollaborasionistlər Njde və Dronun şöhrətləndirilməsini misal çəkib.

Rusiyalı siyasətçi erməni xalqının İkinci Dünya müharibəsi dövründə əbədi qəhrəmanlığını xarakterizə edən bəlağətli rəqəmlər misal gətirib. Faşizmə qarşı mübarizədə 200 mindən artıq erməni həlak olub, 103 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 70 min nəfər orden və medallarla təltif edilib. Lakin bu həqiqi qəhrəmanların təriflənməsi əvəzinə hərbi cani olan Njde nümunə gətirilir! "Ermənistanın müasir siyasi elitası tamamilə bilərəkdən tarixi həqiqəti Qərb "sifarişçilərinin" xeyrinə manipulyasiya edir. Onların ötəri siyasi və iqtisadi mənfəət hərisliyi öz xalqlarının həyatına görə məsuliyyət hissini üstələyir", - deyə Dmitri Savelyev qeyd edib.

Rusiyalı deputat Böyük Qələbənin 75 illiyinə həsr olunan onlayn-konfransda Ararat Mirzoyanın dediyi sözləri də şərh edib. Ermənistan parlamentinin spikeri bəyan etmişdi ki, nasistlərlə Qaregin Njde arasında paralellər yersizdir. Dmitri Savelyev deyir: "Njdenin cinayətlərinin təkzibedilməz sübutları mövcuddur. Buraya həm Qızıl Ordunun arxa cəbhəsində təxribatçılıq işi ilə məşğul olan diversantların hazırlığı, həmçinin Sovet İttifaqına qarşı vuruşan, 1942-ci ildə yaradılmış erməni legionunun yaradılması aiddir. Njde özünün hərbi cinayətlərinə görə layiqincə məhkum edildi və ömrünü həbsxanada başa vurdu. Və bu faşist əlaltısına Ermənistanın hakimiyyət orqanları Yerevanın mərkəzində təmtəraqlı abidə qoyur, üstəlik bizə onun bioqrafiyasını öyrənməyi məsləhət görürlər!"

Savelyev "Sexakronizmi" - Njdenin hazırladığı və təbliğ etdiyi millətçilik ideologiyasını da diqqətdən kənarda qoymayıb. Bu ideologiyaya görə hər bir erməni üçün ali dəyər onun milləti olmalıdır. Dmitri Savelyev nasizmin və ekstremizmin hər hansı formasına kəskin mənfi münasibət bildirib. Rusiyalı siyasətçi deyib: "Ümumi fəlakət anında xalqların birlikdə davam gətirməkdən ötrü faşizmə qarşı birləşdiyi vaxtda Njde nasist Almaniyası ilə əməkdaşlıqdan faydalanmağa çalışırdı. "Ermənistanın ən yaxşı övladı" belədirsə, bu, ölkə üçün rüsvayçılıqdır. Nasizm hər hansı xalqda özünün hər hansı təzahüründə qəbuledilməzdir".

Dövlət Dumasının deputatı Ermənistanın hazırkı hakimiyyət orqanlarının Njdenin qəhrəmanlaşdırılması işində öz sələflərinin kursunu dəstəkləmələrinin mümkün səbəblərini də izah edib. Dmitri Savelyev əminliklə deyib: "Məlumdur ki, bu yaxınlarda baş nazir Nikol Paşinyanın babasının faşist Almaniyasının tərəfdarı olması barədə bəzi sübutlar üzə çıxıb. Bu faktlar ətraflı yoxlama və sənədlərə əsaslanma tələb edir. Amma Paşinyanın KİV-də verilən suallara cavab olaraq susması - bu, artıq ən bəlağətli cavabdır. Erməni siyasətçilərin hansı siyasi və ya şəxsi motivlər irəli sürməsindən asılı olmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin bu yaxınlarda bir müsahibəsində dediyi çox tutarlı "Ermənistanın hakimiyyəti dəyişə bilər, lakin rejimin mahiyyəti əvvəlki kimi qalacaq" ifadəsi şübhəsizdir.

# Prezident söz verir və əməl edir

## Bu gün Azərbaycanda sosial dəstəyə ehtiyacı olan heç kəs dövlətin diqqətindən kənarda qalmır

*Əvvəli 1-ci səh.*

Beləliklə, sığorta stajının və ya pensiya kapitalının yetərli olmaması, hətta bir çox hallarda çox cüzi əmək fəaliyyəti olması səbəbindən pensiya proqramından kənarda qalmaq riski olan xeyli sayda vətəndaş üçün bu risk aradan qalxdı, onlara hər ay pensiya almaq şansı verildi. Digərləri kimi, onların da pensiyaları mütəmadi olaraq artmaqdadır. Ötən il Azərbaycanda minimum pensiya 72,4 faiz artırılaraq 200 manata çatdırılıb.

2020-ci ilin əvvəlindən pensiyaların ötənilki orta əməkhaqqı artımı göstəricisinə uyğun 16,6 faiz artırılması təmin olunub. Ümumən cari ilin dörd ayı ərzində əmək pensiyalarının orta aylıq məbləği 2020-ci ilin 1 yanvar tarixinə nisbətən 12, 2019-cu ilin müvafiq dövrünə nisbətən 27,8 faiz artaraq 295,3, o cümlədən yaşa görə pensiyanın orta aylıq məbləği 330 manat təşkil edib.

Pensiya qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə hazırlanmış yeni qanun layihəsində pensiyaçıların maraqları nəzərə alınmaqla onların daha üstün məbləğdə sosial ödənişlər ala bilmələrinə şərait yaradılması üçün humanist mövqedən onlara yeni hüquq verilməsi nəzərdə tutulub. Belə ki, layihədə pensiyaçının hüququ olan istədiyi digər pensiya növünə, o cümlədən yaşa görə pensiya növündən əlilliyə görə pensiya növünə keçə bilməsinə imkan verilməsi də yer alıb.

Əmək pensiyası yaşına çatan, lakin əmək stajı pensiya hüququna imkan verməyən, həmçinin fərdi hesabında ən kiçik məbləğdə belə pensiya kapitalı qeydə alınmayanlar da vardı ki, həmin insanlar yalnız müvafiq yaş həddinə - kişilər 67, qadınlar 62 yaşına çatdıqda yaşa görə müavinət ala bilərdilər. Prezident İlham Əliyevin 16 dekabr 2019-cu il tarixdə təsdiqlədiyi qanun bu kateqoriyadan olan vətəndaşlara da humanist yanaşma üzərində diqqət və qayğını özündə ehtiva etdi. Qanunla 2020-ci ilin əvvəlindən yaşa görə müavinət yaşı pensiya yaşı ilə eyniləşdirildi və beləliklə, qeyd edilən vətəndaşlar artıq müvafiq yaş həddinə çatmalarını gözləməli olmadılar. Nəticədə bu ilin əvvəlindən pensiya yaşına çatsa da, pensiya hüququ yaranmayan 11,2 min şəxsə yeni qanunvericilik əsasında yaşa görə müavinət təyin olundu. Ümumilikdə bu ilin 1 may tarixinə ötən ilin müvafiq dövrünə nisbətən 33 min 500 nəfər və ya 55,4 faiz çox olmaqla 94 mindən çox şəxs yaşa görə müavinət alır. 2019-cu ildə reallaşdırılan mühüm sosial paketlər çərçivəsində yaşa görə müavinətin məbləği də 80 faizə yaxın artırılıb.

Bunlardan əlavə, 2019-cu ildə sağlamlıq imkanları məhdud uşaqlara yönələn sosial ödənişlər 2,4 dəfədən çox artırılıb və onlara ünvanlanan aylıq müavinətlər 82 manatdan 150 manata qaldırılıb, həmin uşaqlara qulluq edənlər üçün aylıq təqaüd (50 manat) təsis olunub. Sağlamlıq imkanları məhdud uşaqlar arasında ailə başçısını itirmiş uşaqlar da var. Onlara dövlətin daha bir humanist yanaşması kimi, bu ilin əvvəlindən həmin uşaqlara ailə başçısını itirməyə görə müavinəti (və ya ailə başçısını itirməyə görə pensiyanı) sağlamlıq imkanları məhdudluğa görə müavinətlə birgə (hər iki sosial ödəniş üçün) ala bilmək hüququ verilib. Halbuki əvvəllər onlar bu iki sosial təminat növündən yalnız birini seçə bilərdilər.

Ailə başçısını itirmiş ailələrə gəldikdə bu kateqoriya üzrə aylıq müavinətlərin məbləği ötən il hər ailə üzvü üçün 80 manata çatdırılıb. Bir sıra hallarda bu kateqoriya üzrə ailəyə adambaşına ödənilən müavinətlərin cəmi ailə başçısını itirməyə görə ödənilən pensiya məbləğindən çox olur. Lakin qanunvericilik ailə başçısını itirməyə görə əmək pensiyası hüququ olduğu halda bu pensiyadan imtina edib, ailə başçısını itirməyə görə müavinəti almağa imkan vermirdi. 2020-ci ilin əvvəlindən bu məhdudiyyət aradan qaldırıldı.

Ailə başçısını itirmiş (ABİ) ailələrin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə "Əmək pensiyaları haqqında" qanunda növbəti dəyişikliklərin edilməsi təklifini əks etdirən layihə da hazırlanıb. Humanist yanaşmaya əsaslanan təklifdə ailə başçısını itirmiş şəxsə hüququ yaranan, məbləği daha çox olan əmək pensiyası və ya sosial müavinəti seçmək hüququnun verilməsi nəzərdə tutulub. Bununla yanaşı, yeni qanunvericilik layihəsində təklif olunur ki, ABİ-yə görə pensiya hüququ olan ailə üzvü bu və ya digər səbəblərdən payına düşən pensiya məbləğindən imtina etdikdə, onun bu vaxta qədər aldığı pensiyanın ödənişi dayandırılmasın və digər ailə üzvləri arasında bölüşdürülsün.

Prezidentin 2018-ci il 19 aprel tarixli fərmanına əsasən şəhid hərbi qulluqçuların vərəsələrinin 11 min manat məbləğində birdəfəlik ödəmə ilə təminatı proqramına başlanması dövlət başçısının növbəti mühüm humanist təşəbbüsü olmaqla şəhid ailələrinin sosial müdafiəsinə yönələn mühüm bir dəstək idi. Bununla bərabər, 28 yanvar 2019-cu il tarixli fərmanla birdəfəlik ödəmənin əhatə dairəsinin genişləndirilməsi, ölkəmizin ərazi bütövlüyü uğrunda 1997-ci ilin avqust ayının 2-dək şəhid olmuş vətən övladlarının vaxtilə 11 min manatdan az sığorta ödənişi almış vərəsələrinə də birdəfəlik ödəmənin verilməsi bir humanist yanaşma olaraq cəmiyyətdə rəğbətlə qarşılanan tədbirlərdən biri oldu.

Bugünkü pandemiya dövründə mühüm sosial dəstək tədbirlərindən olan birdəfəlik ödəmə proqramı ilk vaxtlar "Məşğulluq" altsistemində işsiz və işaxtaran kimi qeydə alınmış 200 min nəfər üçün nəzərdə tutulsa da, Prezident İlham Əliyevin humanist siyasəti nəticəsində proqram 3 dəfə genişləndirildi. Belə ki, koronavirusla bağlı işini müvəqqəti itirən və qeyri-formal məşğul insanları, yəni kölgə iqtisadiyyatında çalışan, vergi-sosial sığorta ödəmələrindən yayınan vətəndaşları da bu çətin dönəmdə dövlət öz dəstəyindən kənarda qoymadı. Həmin vətəndaşlar da əhatə olunmaqla birdəfəlik ödəmə ilə 600 min şəxs təmin olundu.

Məlum olduğu kimi, 2007-ci ildən şəhid ailələrinin, 2008-ci ildən müharibə əlillərinin və onlara bərabər tutulanların Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü ilə təminatı həyata keçirilir. Keçmiş sovet dönəmində baş verən hadisələrlə bağlı olmasına baxmayaraq, Əfqanıstanda beynəlmiləl borcunu yerinə yetirərkən həlak olanların ailələri də dövlətin humanist əsasda sosial dəstəyi ilə əhatə edilir. 2014-cü ildən həmin ailələrin Prezidentin aylıq təqaüdü ilə təminatı proqramı qüvvədədir və bu gün onlar digər şəhid ailələri ilə eyni səviyyədə aylıq təqaüdlə (300 manat) təmin edilirlər.

Azərbaycanda ünvanlı dövlət sosial yardımı proqramının əhatə dairəsi də getdikcə genişlənir. Hazırda 83 min ailənin 350 min üzvü ünvanlı sosial yardımla təmin olunur. Hər ailəyə ayda orta hesabla 224 manat yardım ödənilir. Ünvanlı dövlət sosial yardımı ilə bağlı yeni qanunvericilik layihələrində aztəminatlı ailələrin bu yardım proqramından daha geniş şəkildə faydalanmalarına şərait yaradılması üçün proqramın meyarlarının humanist mövqedən xeyli yumşaldılması ilə bağlı dəyişikliklərin nəzərdə tutulduğunu görmək olar. Bu layihələrə əsasən:

- ailə tərkibində baş vermiş dəyişiklik və bu dəyişikliyə görə məlumat verilməməsi ailəyə sosial yardım təyinatından imtinaya və ya ailəyə yardımın dayandırılmasına səbəb olmayacaq;
- ailənin gəlirlərində dəyişiklik baş verdiyi halda bu barədə ailənin məlumat verməsi üçün müddət 5 iş günündən 15 iş gününə və ya 21 günədək uzadılacaq;
- ailənin ünvanlı dövlət sosial yardım almaq hüququna baxılarkən onun götürdüyü borc (o cümlədən kredit) ailənin sosial yardım hüququna maneə yaratmayacaq;
- ünvanlı yardım üçün müraciət zamanı qeyd edilməsi tələb olunan məlumatların sayı azaldılacaq və s.

Bütün bunlar sosial təminat sisteminin daha çox humanist yanaşmalar üzərində qurulmasını sübut etməklə yanaşı, onun vətəndaşa daha yaxın və əlçatan olmasını təsdiqləyir.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# Azərbaycan Ordusunda hərbi təlimlər həyata keçirilir





Genişmiqyaslı əməliyyat-taktiki təlimlərin planına uyğun olaraq döyüş aviasiya vasitələrinin yerdəyişməsi həyata keçirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, döyüşə hazır vəziyyətə gətirilən təyyarə və helikopterlər ehtiyat aerodromlara çıxarılır.

* * *

Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimlərində qoşunlar döyüş təyinatı rayonlarına gecə vaxtı çıxarılma tapşırıqlarını yerinə yetiriblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, qüvvələr vaxt, marşrut, tapşırıqlar üzrə gecə və məhdud görüntü şəraitində yürüş ediblər.

* * *

Müxtəlif qoşun növlərinin cəlb edilməsi ilə keçirilən təlimlər davam edir. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, təlimin niyyətinə uyğun olaraq əməliyyatlarda atəş dəstəyi həyata keçirəcək tank bölmələri təyin edilmiş məntəqələrə çıxarıldıqdan sonra növbəti mərhələyə hazırlıqla bağlı tapşırıqlar icra edirlər.

***AZƏRTAC***

# Atəşkəs rejimi 24 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# "İrəli" İctimai Birliyinin VII hesabat-seçki konfransı olub



Mayın 19-da "İrəli" İctimai Birliyinin onlayn formatda hesabat-seçki konfransı keçirilib. AZƏRTAC xəbər verir ki, 300-ə yaxın gəncin qatıldığı videokonfransda dövlət və hökumət rəsmiləri, qeyri-hökumət təşkilatlarının, media qurumlarının rəhbər şəxsləri və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

"İrəli" İctimai Birliyinin baş katibi Şahin Rəhmanlı qurumun fəaliyyətinə dair hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, fəaliyyətində milli maraqlara söykənən təşkilat gənclərə vətənpərvərlik ruhunun, dövlətçilik prinsipinin aşılanmasına və onların ictimai həyatda fəallıqlarının artırılmasına xüsusi diqqət yetirir. Hesabat dövründə "İrəli" İctimai Birliyinin vətənpərvərlik, dövlətçilik və azərbaycançılıq dəyərlərinin təbliği üzrə onlarla müxtəlif layihə çərçivəsində 22 min 600-dən çox gənci əhatə edib. Qeyd olunub ki, yeni növ koronavirus pandemiyası şəraitində fəaliyyətini virtual məkanda davam etdirən "İrəli" İctimai Birliyi onlayn formatda üç böyük silsilə layihə həyata keçirib. Təşkilatın VII hesabat-seçki konfransı da bu onlayn fəaliyyətin daha bir nümunəsidir.

Hesabat məruzəsindən sonra təşkilatın İdarə Heyətinə seçki keçirilib. Namizədlər haqqında təqdimat nümayiş olunub və səsvermə prosesi başlayıb. İdarə Heyətinin üzvləri təsdiqləndikdən sonra Şahin Rəhmanlı səs çoxluğu ilə "İrəli" İctimai Birliyinin İdarə Heyətinin yeni sədri seçilib.

Göstərilən yüksək etimada görə "İrəli" İctimai Birliyinin kollektivinə təşəkkür edən Şahin Rəhmanlı daim gənclərin yanında olacağını, bundan sonra da peşəkar komanda ilə ictimai birliyin uğurları üçün çalışacağını bildirib. Vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti gənclərin bilik və bacarıqlarını, elmi potensialını səmərəli şəkildə reallaşdırmalarını, cəmiyyətdə layiqli yer tutmalarını təmin edir, ölkəmizin dayanıqlı inkişafını şərtləndirir.

Qeyd olunub ki, bu yaxınlarda dövlət başçısının sərəncamı "İrəli" İctimai Birliyinin İdarə Heyətinin sabiq sədri Mirhəsən Seyidovun Neftçala Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması "İrəli" İctimai Birliyinin və ümumilikdə bütün gənclərin fəaliyyətinə verilən ən yüksək qiymətdir. Bu qiymət və diqqətə görə ölkə başçısına "İrəli" İctimai Birliyinin üzvləri adından minnətdarlığını bildirən Şahin Rəhmanlı vətənpərvər ölkə gənclərini ictimai fəallığa, təşəbbüskarlığa, sağlam həyat tərzi keçirməyə və daim dövlətçiliyimizin keşiyində durmağa səsləyib.

Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, Azərbaycan Respublikası Gənclər Fondunun İcraçı direktoru Fərid Cəfərov, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov, Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova çıxışlarında "İrəli" İctimai Birliyinin uğurlu fəaliyyətindən bəhs ediblər. Çıxış edənlər "İrəli" İctimai Birliyinin yeni sədri Şahin Rəhmanlını təbrik edib, birliyin bundan sonrakı fəaliyyətində uğurlar arzulayıblar.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov "İrəli" İctimai Birliyinin daim ölkəmizin maraqlarını ön planda saxladığını, gənclərə düzgün istiqamət verərək onların milli-mənəvi dəyərlər ruhunda yetişməsinə nail olmağa çalışdığını vurğulayıb. İdarə Heyətinin yeni üzvlərini və təşkilatın sədri Şahin Rəhmanlını təbrik edən M.Seyidov İctimai Birliyə bundan sonrakı fəaliyyətində uğurlar arzulayıb.

Sonda "İrəli" İctimai Birliyinin üzvlərinə təşkilatın işində fəal iştirak, "İrəli"nin dəyər və prinsiplərini fəal təbliğ etməklə bağlı çağırış ünvanlanıb.

# Aqrar sahənin inkişafı ərzaq təhlükəsizliyini təmin edir

*Əvvəli 1-ci səh.*

Məlum olduğu kimi, hazırda dünyada dövlətlər arasında münasibətlər kəskin şəkil alıb. Gərgin siyasi rəqabət iqtisadi münasibətlərə də mənfi təsir göstərir. Buna görə dövlətlər bir-birinə qarşı iqtisadi sanksiyalardan istifadə edirlər. Əvvəllər bu sanksiyalar siyasi, hərbi, iqtisadi və maliyyə xarakteri daşıyırdısa, indi buraya ərzaq məhsullarının ixracı da əlavə olunub. Digər tərəfdən, dünyada əhalinin sayı sürətlə artır. Sözsüz ki, bu da ərzağa olan tələbatın artması deməkdir. Həmin səbəbdən hazırda ərzaq məhsulları da enerji daşıyıcıları kimi strateji əhəmiyyət kəsb etməyə başlayır. Xüsusilə mühüm qida vasitəsi olan buğda siyasi təzyiq vasitəsinə çevrilib. Görülən odur ki, bir çox dövlətlər siyasi məsələlərdə uzlaşa bilmədikləri ölkələrə müxtəlif bəhanələrlə buğda idxalına qadağa qoyur.

Qeyd edildiyi kimi, Prezident İlham Əliyev Azərbaycanda aqrar islahatların aparılmasına və bu sahənin inkişafına xüsusi önəm verir. Belə ki, kənd təsərrüfatında çalışan fermerlər torpaq vergisindən savayı bütün növ vergilərdən azad edilib. Bununla yanaşı, onların istifadə etdikləri yanacaq və sürtgü yağlarına görə də dövlət tərəfindən subsidiya ödənilir. Gübrə, toxum və damazlıq heyvanlar da güzəştli qiymətlərlə verilir. Eyni zamanda fermerlərə güzəştli şərtlərlə kənd təsərrüfatı texnikası və avadanlığı satılır və ya aqrolizinqlər vasitəsi ilə



xidmət göstərilir. Dövlətin qayğısı nəticəsində Azərbaycan kəndlisi dünyanın inkişaf etmiş ölkələrinin ən yaxşı texnika və texnologiyalarından istifadə edərək yüksək məhsul götürür.

Vurğulayaq ki, ölkə üzrə taxılçılıqda ümumi göstərici 30 faiz olduğu halda, yeni texnika və texnologiyalardan istifadə edən aqroparklarda bu rəqəm 60 faizdən yüksəkdir.

Əvvəllər aqrar sektorda çalısan fermerlərin ən böyük problemi maliyyə çatışmazlığı olub. İslahatların ilk illərində bu vəsaitin çatışmazlığı üzündən fermerlər öz təsərrüfatlarını genişləndirə bilmirdilər. Dövlət bu problemi aradan qaldırmaq üçün kənd təsərrüfatında çalışan sahibkarlara güzəştli şərtlərlə kredit ayırmağa başladı. Ayrılan güzəştli kreditlərin 80 faizi regionlarda fəaliyyət göstərən sahibkarlara verildi. Sözsüz ki, regionlarda yaşayan əhalinin çox hissəsi kənd təsərrüfatı ilə məşğul olduğu üçün bu kreditlərin də çox hissəsini onlar aldılar. Beləliklə, kəndlinin maliyyə çatışmazlığı problemi həll edildi. Bu gün həmin güzəştli kreditlərdən istifadə edən kiçik və orta təbəqəli fermerlər iri sahibkarlara çevrilib.

Dövlət tərəfindən aqrar sektorda keçirilən islahatlar və fermerlərə göstərilən hərtərəfli dəstək öz bəhrəsini verir. Qeyri-neft sektorunda məhsul istehsalına görə kənd təsərrüfatı xüsusi çəkiyə malikdir. Bu gün bir çox kənd təsərrüfatı məhsulları ilə özümüzü təmin etməklə yanaşı, onları xarici bazara da ixrac edirik. Prezident İlham Əliyev cari ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə demişdir: "Birinci rübdə kənd təsərrüfatının artımı 3,7 faiz olmuşdur. Bitkiçilikdə daha böyük nəticələr əldə edilib, 13 faizdən çox artım var. Nəzərə alsaq ki, keçən il də bitkiçilikdə artım böyük idi, bu, göstərir ki, bu sahə uğurla, sürətlə inkişaf edir. Heyvandarlığa gəldikdə, burada inkişafa nail olmaq üçün daha çox vaxt lazımdır. Burada da artım 3 faizdən bir qədər çoxdur".

Ölkəmizdə əsas ərzaq məhsulu - buğdaya olan tələbatın ödənilməsi üçün 1 milyon hektardan çox sahədə taxıl əkini aparılıb. Əkin sahələrinin 641 min hektarını buğda, 369 min hektarını arpa əkini təşkil edib. Bununla yanaşı, ölkə üzrə 21 rayonda 100 min hektarda ikinci strateji məhsul olan pambığın əkini proqnozlaşdırılıb. Mövsümü uğurla başa vurub, yüksək məhsul almaq üçün 19 mindən çox istehsalçı ilə müqavilə bağlanılıb ki, əkin sahələri toxum, gübrə və pestisidlə təmin edilsin. Eyni zamanda bol məhsul götürmək üçün tütün, şəkər çuğunduru, bostan, tərəvəz sahələrində, meyvə bağlarında əkin və becərmə işləri uğurla davam edir.

Bu gün aqrar sektorda həyata keçirilən uğurlu islahatların nəticələrini bazar və supermarketlərdə satılan kənd təsərrüfatı məhsullarının mənşəyinə diqqət yetirdikdə aydın görürük. Əgər 1990-cı illərdə məhsulların çox hissəsini xaricdən gətirirdiksə, indi onların əksəriyyəti öz torpağımızın və zəhmətimizin barıdır. Alıcılar da dad və keyfiyyətinə görə yerli məhsullara üstünlük verir.

Eyni zamanda ölkədən ixrac edilən qeyri-neft məhsulları arasında kənd təsərrüfatı mallarının çəkisi ildən-ilə artır. Son iki-üç ildə qeyri-neft sektorunda ixrac edilən məhsullardan ölkəyə ən çox valyuta gətirən xam qızıl, pomidor, pambıq və fındıqdır. Göründüyü kimi, dörd məhsuldan üçü kənd təsərrüfatına aiddir. Bu fakt bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan aqrar islahatlar uğurlu olub. Bunun sayəsində ölkənin ərzaq təhlükəsizliyi təmin edilib, üstəlik, xarici bazara məhsul çıxarılaraq valyuta əldə etmək imkanı yaranıb.

***Rüstəm KAMAL,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!

## 73-cü Ümumdünya Səhiyyə Assambleyası COVID-19 pandemiyası ilə əlaqədar videokonfrans formatında keçirildi

Mayın 18-19-də baş tutmuş 73-cü Ümumdünya Səhiyyə Assambleyası dünyada mövcud COVID-19 pandemiyası şəraiti ilə əlaqədar videokonfrans formatında keçirildi.





Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sessiyada COVID-19 pandemiyasına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, epidemioloji nəzarət, karantin qaydalarının həyata keçirilməsi, qazanılmış müsbət təcrübədən istifadə, mütəşəkkillik və görüləcək fəaliyyətlərin müzakirəsi aparılıb. Ümumdünya Səhiyyə Assambleyasının iştirakçıları Ümumdünya Səhiyyə Təşkilatına üzv olan 194 dövlətin nazirləri və bir sıra beynəlxalq qurumların nümayəndələrindən ibarət idi.

Sessiya zamanı səfir Keva Beyn (Baham adaları) Ümumdünya Səhiyyə Assambleyasının yeni prezidenti seçildi. Öz nitqində Assambleyanın sədri bildirdi: "Son 25 il ərzində biz ictimai səhiyyə sahəsində misilsiz nailiyyətlərin əsl qızıl dövrünü müşahidə edirik. Biz uşaq ölümünü 47 faiz, ana ölümünü isə 45 faizə qədər azalda bildik. HİV, AİDS, malyariya və digər xəstəliklərin yayılmasına gəldikdə, burada da əhəmiyyətli nailiyyətlər müşahidə olunur. COVID-19 virusu yeni texnologiyaların yarandığı dövrdə ortaya çıxıb və indi yeni biliklər, innovasiyalar, çeviklik və düşünülmüş ölkələrarası qarşılıqlı əlaqələr tələb olunur. Bu böhranlı dövrlərdə ÜST-ün rolu hamımıza onu xatırladır ki, biz bir-birimizə bağlı olan və bir-birindən asılı olan dünyada yaşayırıq, burada rifah və sağlamlıq ölkənin inkişaf səviyyəsindən asılı olmayaraq, şərait və qərarlardan asılıdır. Bakterial və virus təhlükəsi çox tez yayılır, ÜST COVID-19 müqavimətini təmin etmək üçün ardıcıl və qətiyyətlə hərəkət etməlidir. Eyni zamanda mandat çərçivəsində hərəkət etmək və milyonlarla insanın, xüsusilə də qeyri-infeksion xəstəliklərdən əziyyət çəkən şəxslərin sağ qalmasına təhlükə yaradan təhdidləri aradan qaldırmaq üçün balans yaratmaq lazımdır. Mən əminəm ki, biz bu gün yaşadığımız ağır reallıqların öhdəsindən gələ biləcəyik. COVID-19 pandemiyasından sonrakı vəziyyət bizə səmərəli hərəkət etməyə imkan verəcək, bunun üçün isə biz yeni həyat tərzinə keçid almalı, mövcud resurslarımızı yönləndirməli və maksimuma çatdırmalıyıq, həmçinin cəmiyyətlərimizin iqtisadi, psixoloji və fiziki rifahı arasında yeni tarazlıq yaratmalıyıq. Bəli, biz yaşlı vətəndaşlarımızı itirmişik və ona görə də sağ qalanlarını müdafiə etmək üçün daha çox səy göstərməliyik".

Sessiya zamanı Azərbaycan Respublikasının Səhiyyə naziri, professor Oqtay Şirəliyev öz çıxışında bildirdi: "Azərbaycan pandemiyaya qarşı vaxtında ciddi tədbirlər həyata keçirib ki, bunun da nəticəsində hazırda 10 milyon əhalisi olan ölkədə cəmi 3274 yoluxma halı qeydə alınıb, onlardan 2015-i sağalıb, ölüm halları isə 1,2 faiz təşkil edib. Prezident İlham Əliyev xalqa "Biz birlikdə güclüyük!" çağırışı ilə müraciət edib. Qeyd etmək istəyirəm ki, bu çağırış beynəlxalq səviyyədə də aktualdır. Yalnız səyləri birləşdirərək, məqsədyönlü, düşünülmüş fəaliyyət strategiyasını quraraq pandemiyaya qarşı mübarizədə uğur qazanmaq olar. Biz beynəlxalq təsisatlarla və dünya birliyi ilə bundan sonra da əməkdaşlıq etməyə hazır olduğumuzu bildiririk. Əminəm ki, bu gün nümayəndə heyətlərinin başçıları, beynəlxalq təşkilatların rəhbərləri tərəfindən səslənən dəyərli fikir və təkliflər koronavirusa qarşı birgə mübarizəmizə kömək edəcək".

## Dövlət Turizm Agentliyinin tabeliyindəki bir neçə turizm müəssisəsinə giriş pulsuz olacaq

Dövlət Turizm Agentliyi (DTA) xüsusi karantin rejimi ilə əlaqədar tətbiq edilən bəzi məhdudiyyətlərin aradan qaldırılması, Ramazan bayramı, Respublika Günü və Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə daxili turizmin inkişafına dəstək məqsədilə mayın 19-dan iyunun 2-dək tabeliyində olan bir neçə turizm müəssisəsinə girişi ödənişsiz edəcək.

DTA-nın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ziyarətçilər aşağıda adları qeyd olunan turizm obyektlərinə sosial məsafə və sanitar-epidemioloji qaydalara əməl etmək şərtilə ödənişsiz daxil ola bilərlər:

"Yanar dağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu;

"Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu;

"Lahıc" Tarix-Diyarşünaslıq Muzeyi;

Şəki Tarix-Diyarşünaslıq Muzeyi;

Şəki Xalq Tətbiqi Sənəti Muzeyi.

Xatırladaq ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarı rəhbər tutularaq mayın 18-dən etibarən Dövlət Turizm Agentliyinin tabeliyində olan turizm nümayiş obyektləri, o cümlədən qalereya və muzeylərə tətbiq olunmuş giriş məhdudiyyəti aradan qaldırılıb.

## BMT-nin İnkişaf Proqramı və TƏBİB ön sırada çalışan səhiyyə işçilərini tibbi avadanlıqlarla təmin edib

BMT-nin İnkişaf Proqramı və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) birgə əməkdaşlığı çərçivəsində Azərbaycanın tibb işçiləri və pasiyentləri üçün tibbi ləvazimatların satınalınması həyata keçirilib. BMT-nin Azərbaycandakı nümayəndəliyindən AZƏRTAC-a bildirilib ki, içində 50.000 tibbi eynək və 1000 kontaktsız infraqırmızı termometrin də olduğu tibbi avadanlıq dəsti BMTİP-in beynəlxalq təchizat zənciri vasitəsilə Bakıya gətirilib.

Sözügedən ləvazimatlar hazırda birgə icra edilən, "Azərbaycanda tibbi təchizat sisteminin gücləndirilməsində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə dəstək layihəsi" çərçivəsində satın alınıb. Avadanlıqlar bu həftə ərzində tibb müəssisələrinə çatdırılacaq.

"Son aylar ərzində BMT-nin İnkişaf Proqramı BMT ailəsi ilə birgə, pandemiyanın yaratdığı çətinlikləri çevik şəkildə aradan qaldırmaq məqsədilə Azərbaycan hökuməti ilə sıx əməkdaşlıq edir. Buraya rəqəmsal səhiyyə xidmətlərinə dair texniki məlumat dəstəyi, ictimai məlumatlandırma, onlayn təhsil sisteminin fəaliyyətini davam etdirməsi və əhalinin ən həssas qruplarının sosial rifahının yaxşılaşdırılması istiqamətləri daxildir",- deyə BMTİP-in rezident nümayəndəsi Alessandro Frakassetti bildirib.



## Azərbaycanda koronavirusa daha 131 yoluxma faktı qeydə alınıb, 143 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 131 yoluxma faktı qeydə alınıb, 143 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, keçirilmiş miokard infarktı, qaraciyər çatışmazlığı və xronik böyrək çatışmazlığı olan 1949-cu il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 3518 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 2198 nəfər müalicə olunaraq sağalıb, 41 nəfər vəfat edib, 1279 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 41 nəfərin vəziyyəti ağır, 59 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 240.220 test aparılıb.

## Azərbaycan qlobal pandemiya ilə qətiyyətli mübarizə aparır

### Ölkəmiz karantin rejiminin tamamilə ləğv olunmasının bir addımlığındadır

Çin səddini aşıb böyük sürətlə dünyaya hakim kəsilən koronavirus, COVID-19 infeksiyası insanlara yeni yaşam şərtləri diktə etdi. Alışdığımız bir çox qaydaların üzərindən xətt çəkdi, xəyalımıza belə gətirməyəcəyimiz həyat tərzi qazandırdı...

Hələlik koronavirusun necə yarandığı, necə müddət davam edəcəyi, çarəsinin tapılıb-tapılmayacağı və bu kimi bir çox suallara cavab almasaq da, dünyanın daha əvvəlki kimi dövran etməyəcəyi gün kimi aydındır...

O da məlumdur ki, ilk zamanlarda koronavirusu ciddiyə almayıb, ona qarşı zamanında tədbir görməyən ölkələrə qarşı bu zalım infeksiya daha amansız oldu. Yoluxduğu insanların, aldığı canların sayını günbəgün çoxaltdı. Və cəmi bir neçə ay ərzində dəhşətli kabusa, dünyada baş verən insanlığın faciəsinə şahid olduq.

### Təhlükədən uzaqlaşma

Ölkəmiz də bu amansız virusla gecə-gündüz qətiyyətli mübarizəyə atıldı. Azərbaycanda COVID-19-a qarşı dərhal ciddi tədbirlərə start verildi. Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı, sərhədlər bağlandı, yoluxmanın sürətini azaltmaq üçün xüsusi karantin rejimi tətbiq olundu, xaricdə qalan vətəndaşlarımız ölkəyə qaytarıldı, karantin müddətində aztəminatlı, kimsəsiz və yaşı 65-dən yuxarı olan tənha insanlara yardım edildi. Xəstəliyin erkən aşkarlanması üçün diaqnostik testlərin sayı çoxaldıldı.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) mayın 17-nə olan statistikasına əsasən, həmin zamana qədər Azərbaycanda yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar ümumilikdə 232 077 test aparılıb. Koronavirusa yoluxmuş xəstələrin böyük əksəriyyəti müalicə olunaraq sağalıb.

Koronavirus təhlükəsinin azaldılması istiqamətində görülən tədbirlər müsbət təsirini göstərməyə başladı. Buna görə də artıq aprelin 27-dən etibarən Azərbaycanda tətbiq olunan karantin rejimi mərhələ-mərhələ yumşaldılmağa başlanıb.

### Bu nailiyyətlər Prezident İlham Əliyevin qətiyyətli və çevik siyasəti nəticəsində əldə olundu

Azərbaycanda koronavirus pandemiyası ilə mübarizədə mühüm addımların atılması, dövlətimizin bütün imkanlarını virusun yayılmasının qarşısının alınması və onun fəsadlarının aradan qaldırılmasına yönəltməsi isə birbaşa Prezident İlham Əliyevin qətiyyətli və çevik siyasəti nəticəsində əldə olundu.

Dövlət başçısı hər zaman olduğu kimi, vətəndaşının yanında oldu, onların sağlamlığının, təhlükəsizliyinin təmin olunması istiqamətində çevik addımlar atdı, Azərbaycanın qlobal böhrandan minimum itki ilə çıxması üçün lazımi tədbirlər gördü.

İlham Əliyevin bu uğurlu siyasəti dünyanın da diqqət mərkəzinə çevrildi, nümunə göstərildi.

### SMS icazə ləğv olunsa da, sənəd mütləqdir...

Mayın 18-dən etibarən yeni növ koronavirus infeksiyası ilə bağlı Azərbaycandakı sanitar-epidemioloji vəziyyət, ölkə əhalisi arasında virusa yoluxanların ümumi sayı və xəstələrin sağalma dinamikası nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində tətbiq edilən məhdudiyyətlərin daha bir qismi yumşaldılıb.

Mövcud sanitar-epidemioloji vəziyyət, aktiv xəstə sayı və yoluxma sürəti əsas götürülməklə 18 may 2020-ci il saat 00:00-dan etibarən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olunub.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin rəisi Ehsan Zahidov "icaze.e-gov.az" portalında qeydiyyatdan keçmək sistemi ləğv olunduğu üçün Bakı, Sumqayıt, Lənkəran, Gəncə şəhərlərinə və Abşeron rayonuna giriş-çıxışın necə tənzimlənəcəyinə aydınlıq gətirib. E.Zahidov açıqlamasında bildirib ki, Bakı, Sumqayıt, Abşeron, Gəncə və Lənkəranı tərk edərək, digər rayonlara getməli olan dövlət qurumlarının əməkdaşları mütləq qaydada quraşdırılmış polis postlarında işlədiyi dövlət qurumu tərəfindən ona verilmiş ezamiyyə vərəqəsini və digər sənədləri təqdim etməlidir: "Yəni ezamiyyətə gedirsə, mütləq ezamiyyə vərəqi olmalı və orada hansı məqsədlə getdiyi qeyd edilməlidir".



### Pandemiya dövründə ehtiyat əldən verilməməlidir

Bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyət 10 nəfərdən artıq qruplarda cəmləşməmək şərti ilə götürülüb. Restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında müştərilərə yerində xidmət saat 08:00-dan 18:00-dək bərpa olunub (ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə istisna olmaqla).

Qeyd edək ki, restoran, kafe, çay evlərində, eləcə də bütün ictimai iaşə məkanlarında xidmətlər pandemiya dövründə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan müvafiq sanitar-epidemioloji qaydalara və metodiki göstərişlərə uyğun həyata keçirilməlidir. Bu qaydalara riayət edilməsi ictimai iaşə obyektlərinin rəhbər şəxsləri və əməkdaşlarının, eyni zamanda xidmətlərdən istifadə edən müştərilərin birbaşa öhdəliyidir. Qaydaların pozulması qanunvericiliklə nəzərdə tutulmuş inzibati və cinayət məsuliyyəti yaradır.

Eyni zamanda 18 may 2020-ci il saat 00:00-dan bütün ölkə üzrə 65 yaşdan yuxarı insanların evdən çıxmasına tətbiq olunan qadağa götürülüb. Bununla belə 65 yaşdan yuxarı şəxslər COVID-19 virusuna yoluxmada risk qrupuna daxil olduğundan evdən zəruri hallarda çıxmaq tövsiyə edilir. Eyni zamanda insanların sıx toplaşdığı məkanlarda olmamaq, sosial məsafənin gözlənilməsi, qoruyucu vasitələrdən istifadə zəruridir.

### Gündəlik həyat tərzinə çevrilməli qızıl qaydalar

Fəaliyyətinə icazə verilən sahələr üzrə iş rejimi pandemiya dövründə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara, metodiki göstərişlərə uyğun həyata keçirilməlidir.

Operativ Qərargah bir daha vurğulayır ki, COVID-19 virusu ilə mübarizə uzunmüddətli proses olduğundan xəstəliyə qarşı qabaqlayıcı tədbirlər hər bir şəxsin gündəlik həyat tərzinə çevrilməlidir:

"Bu baxımdan COVID-19 ilə bağlı hazırkı vəziyyətdə hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, evdən yalnız ciddi ehtiyac yarandıqda çıxmağa, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa, mövcud preventiv tədbirlərin şərtlərinə əməl etməyə çağırırıq. Mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq qoruyucu vasitələrdən istifadə və sosial məsafənin gözlənilməsi mütləqdir".

Göründüyü kimi, pandemiyadan və karantin rejimindən xilas olmağın yeganə yolu sosial təcrid qaydalarına riayət etmək və qoruyucu tibbi ləvazimatlardan istifadə etməkdir. Çünki məhz bunun sayəsində ölkəmizdə hazırda koronavirusla bağlı vəziyyət kifayət qədər qənaətbəxşdir. Addım-addım bu təhlükədən uzaqlaşır, normal həyata dönürük. Karantin rejiminin respublikamızın bütün guşələrində ləğv edilməsinə, pandemiyadan xilas olmağımıza çox qısa zaman qalıb. Yetər ki, hər birimiz Operativ Qərargah tərəfindən müəyyənləşdirilmiş qaydalara əməl edək, dövlətimizin və vətəndaşlarımızın birlikdə əl-ələ verərək mübarizə apardığı pandemiyanı ölkəmizdən birdəfəlik silək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Aztəminatlı ailələrə 190 manatlıq ödənişlərin verilməsi davam edir

### Buna görə vətəndaşlar dövlət başçısına minnətdarlıqlarını bildirirlər

Azərbaycan Prezidenti İlham Əliyevin fərman və sərəncamlarına əsasən iki aydan artıqdır ki, bəşəriyyətə meydan oxuyan koronavirus (COVID-19) xəstəliyinə qarşı ölkəmizdə qətiyyətlə mübarizə aparılır, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, habelə sağlamlığının qorunması istiqamətində müxtəlif tədbirlər həyata keçirilir.

Ölkəmizdə sosial sahədə reallaşdırılan bu tədbirlər cari ilin mart ayından bəri gizli ölümlə mübarizə dövründə daha da genişləndirilmişdir. Respublikamızda müdafiə tədbirləri sosial təminat, sosial yardım və sosial dəstək qaydasında həyata keçirilir. Dövlət başçısının sərəncamına əsasən bu kateqoriyadan olan aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi paytaxtı və regionları əhatə etməklə respublikamızın bütün bölgələrində reallaşmaqdadır. Həyata keçirilən bu layihə əhalinin maddi-rifah halının və əhvali-ruhiyyəsinin yüksəlməsinə müsbət təsir göstərmişdir. Birdəfəlik maddi yardımlar əsasən əhalinin heç yerdə işləməyən qrupu üçün nəzərdə tutulur. Xatırladaq ki, Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə təkcə Ağcabədi rayonunda 8100 nəfər 190 manat birdəfəlik müavinət almışdır. Bundan başqa, Heydər Əliyev Fondunun dəstəyi ilə 5 minə yaxın aztəminatlı ailəyə ərzaq yardımı edilmişdir. Nümunə üçün xatırlatdığımız bu proses Azərbaycanın bütün bölgələrində, şəhər və kəndlərində davam etməkdədir.

Azərbaycan Prezidentinin aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi və əhvali-ruhiyyəsinin yaxşılaşdırılması istiqamətində atdığı addımlar respublika vətəndaşları tərəfindən minnətdarlıq hissi ilə qarşılanır. Bu fikirlər son günlər "Azərbaycan" qəzeti redaksiyasına göndərilən çoxsaylı məktub və teleqramlarda, eləcə də internet vasitəsilə aldığımız mesajlarda öz əksini tapır.

Şəmkir rayonu Təzəkənd kəndinin sakinləri Elxan Eldar oğlu Babayev və Rəşad Sabir oğlu Musayevin birgə imzalayaraq redaksiyamıza göndərdikləri məktubda deyilir: "Pandemiya dövründə aztəminatlı ailələrin rifah halının yüksəldilməsi üçün göstərilən maddi və mənəvi dəstək bizləri çox sevindirdi. Xalqın hər bir nümayəndəsinə, xüsusən də işsizlərə, eləcə də aztəminatlı ailələrə göstərilən diqqət bir daha sübut edir ki, möhtərəm İlham Əliyev hər bir vətəndaşın, hər bir azərbaycanlının Prezidentidir. Biz, eləcə də eyni kənddə yaşayan digər işsizlər Azərbaycan Prezidentinin sərəncamına əsasən aprel ayında 190 manat birdəfəlik yardım aldıq. May ayında veriləcək yardım üçün xüsusi hesab açdırmışıq. Bundan başqa, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığına əsasən bizlərə dəfələrlə ərzaq yardımı edilmişdir.



Bütün bunlara görə cənab Prezidentə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürümüzü bildiririk. Ümidvarıq ki, onların rəhbərliyi ilə xalqımız mövcud çətinliklərin öhdəsindən layiqincə gələcək".

Birdəfəlik yardım alan Bakı şəhəri Xəzər rayonunun Albalılıq qəsəbəsinin sakini Nazilə Ziyadxan qızı İsmayılova qəzetimizin adına ünvanladığı teleqramda ürək sözlərini belə ifadə edir: "Mən Azərbaycan Prezidenti İlham Əliyevlə qürur duyuram. Dünyanı başına götürən koronavirus pandemiyasından ölkəmizi qorumaq üçün onun tapşırığı ilə əvvəlcədən qabaqlayıcı tədbirlər görülmüş, bütün qüvvələr səfərbər edilmişdir. Prezidentimiz bu çətin günlərdə aztəminatlı ailələri və işsiz vətəndaşları nəzərə alaraq dövlət tərəfindən 190 manat birdəfəlik ödəmələr üçün vəsait ayırmışdır. Bu vəsait əvvəlcə 200 min insana şamil edilirdi, lakin sonradan Prezidentin təşəbbüsü ilə bu say 600 minə çatdırıldı. Dövlət başçısının tapşırığı ilə əvvəlcədən görülmüş profilaktiki tədbirlər nəticəsində Azərbaycanda koronaviruslu xəstələrin sayı digər ölkələrə nisbətən xeyli azdır. Dünyanın ən böyük və güclü ölkələri belə koronavirus pandemiyası qarşısında çarəsiz qaldığı halda Azərbaycan Prezidentinin müdrikliyi sayəsində respublikamızda səmərəli tədbirlər görüldü. Əminik ki, dövlət başçısının qabaqlayıcı tədbirləri sayəsində bu bəladan az itkilərlə qurtulacağıq".

Aprel ayında birdəfəlik 190 manat yardım alan Dəliməmmədli şəhəri, Əli Nəzmi küçəsi, ev 28-də yaşayan Məmməd Azər oğlu Vəliyev yazır: "Mən üç il bundan əvvəl Milli Ordu sıralarında hərbi xidmətdə idim, ailəmiz xidmət etdiyim hərbi hissəyə mənimlə görüşə gələndə avtomobil qəzasına düşmüş, nəticədə atam, anam və azyaşlı bacım dünyasını dəyişmişdi. Hərbi xidmətimi başa vurduqdan sonra bacımla ata yurdunda yaşayıram. Hələ heç yerdə işləmirəm. Hərbi xidmətdə olanda əsgər yoldaşlarıma da demişdim, indi də həmişə bu fikirdəyəm ki, nə yaxşı ki, ölkəyə kimsəsizlərə bu qədər qayğı göstərən Prezidentimiz İlham Əliyev rəhbərlik edir. Dünyanın bu çətin günlərində dövlət başçısı mənim kimi minlərlə insanı sevindirdi. 190 manat alanlar sırasında mən də varam. Aprel ayı üçün bu müavinəti aldım, may ayı üçün bankda hesab açdırmışam. Ümid edirəm ki, may ayının da yardımını rahatlıqla ala biləcəyəm. Onu da bildirim ki, Heydər Əliyev Fondunun xətti ilə karantin günlərində yaşadığım Dəliməmmədli şəhərində aztəminatlı ailələrə və kimsəsizlərə dəfələrlə ərzaq yardımı edilmişdir.

Hörmətli redaksiya, növbəti cümləni bacım Ləmanın təkidli xahişi ilə qələmə alıram: "Çox xoşdur ki, bu gün Azərbaycan qadınlarının fəxri sayılan Birinci vitse-prezident Mehriban xanım Əliyeva kimi ümid yerimiz, dayağımız var. Doğrudan da, möhtərəm Prezidentimizin, eləcə də Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində ölkəmizdə aztəminatlı ailələrin problemləri geniş şəkildə həll edilir. Bunu karantin rejimi dövründə daha yaxından hiss etdik".

Həyat yoldaşı Zəngilan döyüşlərində erməni silahlı birləşmələri ilə mübarizədə şəhid olan, hazırda Bakı Slavyan Universitetinin 2 saylı tələbə yataqxanasında müvəqqəti məskunlaşan Xumar Süleyman qızı Həbibova qəzetimizin elektron ünvanına göndərdiyi məktubda deyir: "Məcburi köçkün olaraq Prezident İlham Əliyevdən çox razıyam. Onun qaçqın ailələrinə göstərdiyi diqqət və qayğı doğma valideyn qayğısı qədər dəyərlidir. Yaxından tanıdığım bir neçə zəngilanlı aprel ayında 190 manat birdəfəlik müavinət alıb. Bundan başqa, Novruz bayramından bu günədək müvəqqəti məskunlaşdığımız yataqxananın bütün sakinlərinə dəfələrlə ərzaq yardımları edilib. Zəngilanlı qaçqınlara göstərilən qayğı və diqqətə görə dövlət başçımıza, habelə Birinci vitse-prezident Mehriban xanım Əliyevaya ailə üzvlərimiz Salman, Sabir, Məryəm, Yasəmən və Şahin Şıxıyevlər adından minnətdarlığımızı bildiririk".

Bu məktub və müraciətlərin sayı onlarcadır, Azərbaycanın hər bir bölgəsindən, hər bir şəhər və kəndindən gələn məktub və teleqramlarda Prezident İlham Əliyevə, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevaya ürəkdolusu minnətdarlıq, təşəkkürlər bildirilir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Pakistan nəşrində Qarabağ münaqişəsinin tarixi barədə məqalə dərc edilib

Pakistanın “Islamabad Post” qəzetində “Qarabağ münaqişəsinin tarixi: bu, necə olub” sərlövhəli geniş məqalə dərc edilib. Məqalənin müəllifi İslamabad Universitetinin professoru Mahmud Ul-Hassan Xandır.

AZƏRTAC xəbər verir ki, Dağlıq Qarabağda və ona bitişik rayonlarda erməni silahlı dəstələri tərəfindən etnik təmizləmə aparılmasını və kütləvi qətllər törədilməsini ətraflı təsvir edən müəllif beynəlxalq hüququn bütün normalarını və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini pozan işğalçı siyasət yürüdən Ermənistanı “faşist dövləti” adlandırır.

Müəllif vurğulayır ki, bundan əvvəl dərc edilmiş silsilə məqalələrin davamı olan tədqiqatın məqsədi tarixin saxtalaşdırılması ilə mütəmadi məşğul olan, mədəni-tarixi irsi məhv etmək yolu ilə bu ərazilərin Azərbaycana məxsusluğunu insanların yaddaşından silməyə cəhd edən işğalçının iç üzünü açıb göstərməkdir.

Müəllif mübahisəsiz faktlara diqqət çəkərək yazır ki, Ermənistan ictimai şüurda manipulyasiyalar etmək üçün nə qədər cəhd göstərsə də, başqa ölkənin, - vaxtilə məhz onun torpaqları sayəsində Ermənistanın yaradıldığı dövlətin, - ərazilərinin 20 faizini təxminən 30 il işğal altında saxlamaq faktını ört-basdır etmək mümkün deyil.

Pakistanlı alim Londonda yerləşən bir qeyri-hökumət təşkilatı tərəfindən bu münaqişənin tarixi ilə bağlı çəkilmiş filmi də ətraflı təhlil edir.




Müəllif bildirir ki, film faktiki olaraq tamaşaçıda belə bir fikir formalaşdırır: Ermənistanın indiki rəhbərlərini də Nürnberq prosesinə oxşar bir aqibət gözləyir.

# Baş Prokurorluq terrorçuluğu maliyyələşdirən şəxsi cinayət məsuliyyətinə cəlb edib

Azərbaycan Respublikasının Baş Prokurorluğu və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən ölkənin ictimai təhlükəsizliyinə qarşı yönələn təhdid və pozuculuq hərəkətlərinin qarşısının alınması və təqsirli şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri tədbirlər davam etdirilir.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə Məmmədov Qabil Əmrah oğlunun Azərbaycan Respublikası ərazisində 2015-2017-ci illərdə törətdiyi aldatma və etibardan sui-istifadə etmə yolu ilə külli miqdarda özgə əmlakını ələ keçirmə cinayət əməllərinə görə məsuliyyətdən yayınmaq məqsədilə Almaniya ərazisində sığınacaq alaraq Azərbaycan Respublikası ərazisində terrorçuluğa hazırlıq və terrorçuluğa açıq çağırışlar etməsinə əsaslı şübhələr müəyyən olunub.

Faktla bağlı Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində başlanmış cinayət işinin istintaqı zamanı Q.Məmmədovun əvvəllər konkret cinayət əməllərinə görə məhkum edilmiş həmfikirləri və havadarları ilə qabaqcadan əlbir olduğu qrupda gizli təşkilatlanıb Azərbaycan Respublikasında ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyət orqanları tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə terror aktları törətmək üçün 2019-cu ildə sosial şəbəkələr vasitəsilə yayımladığı çoxsaylı videoçıxışlarında özünə tərəfdar bildiyi və dəstək verəcəklərini güman etdiyi həmfikirlərinə müraciət edərək silahlanıb mümkün kütləvi aksiyaların gedişində Azərbaycan Respublikasının hakimiyyət orqanlarının yüksəkvəzifəli şəxslərini, o cümlədən ictimai asayişi qoruyan polis əməkdaşlarını qətlə yetirmək, onların evlərini yandırmaqla terrorçuluğun törədilməsinə yönələn açıq çağırışlar etməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Aparılmış istintaqla həmin materialları internet resurslarında yaymaqla nəzərdə tutulmuş cinayətlərin hazırlanması və törədilməsində istifadə edilməsi məqsədilə dövlətə və hakimiyyətə qarşı cinayət əməllərində dəstəklənməsinə etibar etdiyi şəxslərə, o cümlədən yaxından tanıdığı həmyerlisi Əhmədov Niyaməddin Arif oğluna müxtəlif üsullarla göndərdiyi pul vəsaitlərini verməsinə, sonuncunun isə öz növbəsində terrorçuluğun maliyyələşdirilməsində istifadə olunacağını bilib həmin pul vəsaitlərini qəbul edərək uydurma ünvanlar adı altında qəsdən toplamaqla terrorçuluğun maliyyələşdirilməsi cinayətini törətməsinə əsaslı şübhələr müəyyən edilib. Lakin Qabil Məmmədovun çıxışlarında bəyan etdiyi terrorçuluğun törədilməsinə yönələn cinayət əməlləri iradəsindən asılı olmayan səbəblərdən başa çatdırılmayıb.

Göstərilənlərlə əlaqədar hazırda barəsində məhkəmə tərəfindən həbs qətimkan tədbiri seçilməklə axtarışda olan Qabil Məmmədova Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham elan olunmaqla onun Azərbaycan Respublikasına ekstradisiyası üzrə müvafiq hüquqi prosedurlar həyata keçirilir. Niyaməddin Əhmədov isə Cinayət Məcəlləsinin 214-1-ci (Terrorçuluğu maliyyələşdirmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Dövlətçiliyimizin maraqlarının, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın pozulmasına yönələn bütün hüquqazidd əməllərin və onları törətmiş şəxslərin vaxtında aşkarlanaraq məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri tədbirlər bundan sonra da qətiyyətlə davam etdiriləcək.

# On kiloqramdan çox narkotik vasitənin qanunsuz dövriyyəyə buraxılmasının qarşısı alınıb

Külli miqdarda yüksək təsiredici xassəyə malik narkotik vasitələrin və psixotrop maddələrin ölkə ərazisinə gətirilərək realizə olunmasının qarşısı Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən növbəti əməliyyat tədbiri nəticəsində alınıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş İdarə əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında həyata keçirdikləri tədbir nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən paytaxtın Suraxanı rayonunun Əmircan qəsəbəsində yaşayan Elvin Zeynalov saxlanılıb. Onun üzərində axtarış aparılan zaman 390 qram heroin və 215 qram metamfetamin aşkarlanaraq götürülüb.

Baş İdarənin əməkdaşları əməliyyat tədbirlərinin davamı olaraq Elvin Zeynalovun Əmircan qəsəbəsində yaşadığı evə də baxış keçiriblər. Oradan isə idman çantasının içərisindən 4 kiloqram 650 qram heroin, 2 kiloqram 100 qram marixuana, 2 kiloqram 60 qram metamfetamin, 995 qram həşiş, ümumi çəkisi 19,92 qram olan 498 ədəd metadon həbi və elektron tərəzi aşkar edilərək götürülüb. Əməliyyat nəticəsində Baş İdarənin əməkdaşları tərəfindən ümumilikdə 10 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddənin qanunsuz dövriyyəyə buraxılmasının qarşısı alınıb.

Araşdırma zamanı müəyyən edilib ki, Elvin Zeynalov hələlik adı istintaqa məlum olmayan İran vətəndaşının tapşırığı ilə qanunsuz yollarla Azərbaycan ərazisinə keçirilən külli miqdarda narkotik vasitə və psixotrop maddəni Cəlilabad rayonu ərazisində qəbul edib. Daha sonra Elvin Zeynalov narkotik vasitələri paytaxta gətirərək yaşadığı evdə gizlədib. Saxlanılan şəxs narkotik vasitələri İran vətəndaşının deyəcəyi adamlara satandan sonra pulun bir hissəsini geri göndərməli olduğunu bildirib.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Elvin Zeynalov tutularaq istintaqa təqdim olunub. Cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Beynəlxalq aləm



### Tramp ÜST-ə ultimatum verdi

ABŞ Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) öz strukturunda və idarəetmə sistemində islahat keçirilməsini təmin etmək üçün 30 gün möhlət vermişdir. Əks təqdirdə Vaşinqton təşkilatı maliyyələşdirməyi dayandıracaq və üzvlüyünə yenidən baxacaq. ABŞ Prezidenti Donald Tramp ÜST-ün direktoru Tedros Adanom Gebreyesusa ünvanladığı məktubda belə yazmışdır: “ÜST 30 gün ərzində əsaslı dəyişikliklərə zəmanət verməsə, ÜST-ün ABŞ tərəfindən maliyyələşdirilməsinin müvəqqəti olaraq dondurulmasını daimi edəcəyəm və üzvlüyümüzü yenidən nəzərdən keçirəcəyəm”. Tramp əlavə etmişdir ki, amerikalı vergiödəyicilərinin Amerikanın maraqlarına xidmət etməyən bir təşkilatı maliyyələşdirməsinə imkan verə bilməz.

ABŞ Prezidenti qeyd etmişdir ki, zəruri islahatlar ÜST ilə onun rəhbərliyi arasında aparılacaq məsləhətləşmələrin gedişində müəyyən ediləcək. Onun dediyinə görə, ABŞ-ın ÜST-dən çıxmaması üçün təşkilat tezliklə hərəkətə keçməlidir.

### Çində 108 milyon nəfər karantin rejiminə qaytarıldı

Çinin şimal-şərq regionunda təxminən 108 milyon nəfər koronavirusun yenidən yayılması üzündən karantin şəraitinə qaytarılmışdır. Bu barədə “Bloomberg” agentliyi xəbər verir. İnfeksiyanın ocağı Szilin əyaləti və onun eyniadlı inzibati mərkəzidir.



Ölkənin hakimiyyət orqanları dərhal karantinin bərpa olunmasına qərar vermis, avtobus və dəmiryol nəqliyyatını dayandırmış və məktəbləri bağlamışdır. İndi uşaqlar yenidən küçədə maska ilə gəzirlər və tibb işçiləri qoruyucu paltar geyirlər. Ümumilikdə əhalinin evdən çıxışı azalmışdır.

Regionda gündə 34 yeni yoluxma hadisəsi qeydə alındıqdan sonra insanların gözündə infeksiyanın ikinci dalğasının əmələ gəlməsi qorxusu sezilir. Agentlik qeyd edir ki, bundan sonra ölkədə məhdudiyyətlərin qaldırılması prosesi kövrək olacaq. İnfeksiyanın canlanmasına kiçicik işarə ciddi təcrid rejiminin bərpasına gətirib çıxara bilər.

### İspaniyada maska taxmaq məcburi olacaq

İspaniyada karantin yumşaldıldıqca koronavirusla mübarizəni davam etdirmək üçün “maska rejimi” gücləndiriləcək. Bu barədə İspaniya Səhiyyə Nazirliyi məlumat vermişdir.



Maskadan istifadə küçədə və ikimetrlik sosial məsafəni saxlamağın mümkün olmadığı qapalı məkanlarda məcburi olacaq. Bundan əlavə, nəqliyyat vasitələrində, ictimai yerlərdə və mağazalarda qoruyucu vasitələr geymək tələbi də davam edəcəkdir.

Madriddəki mərkəzi hökumət və muxtar bölgələrin, o cümlədən də Kataloniyanın hakimiyyət orqanları nazirliyin mövqeyini dəstəkləmişlər.

### Liviya hökuməti “Vətiyyə” aviabazasına nəzarəti bərpa etdi

Liviya legitim hökuməti uzun illər qiyamçı general Xəlifə Həftərin tərəfdarlarının paytaxt Trablisə hücum etmək məqsədilə tramplin kimi istifadə etdiyi “Vətiyyə” aviabazasını nəzarət altına almışdır. Bu barədə hökumət qoşunlarının qərb cinahının komandanı Üsamə Cüveyli məlumat vermişdir. Cüveylinin dediyinə görə, Trablisdən 140 kilometr cənub-qərbdə yerləşən aviabazaya nəzarət qiyamçıların müqaviməti və hökumət qoşunları arasında tələfat olmadan bərqərar edilmişdir. Həftərin tərəfdarları aviabazada raket buraxılışı qurğularını, hərbi nəqliyyat vasitələrini və çoxlu sayda döyüş sursatını qoyub getmişlər.



Qanunsuz silahlı birləşmələr “Vətiyyə”ni 2014-cü ilin avqustunda zəbt etmişdilər

Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

“BANK OF BAKU” ASC-nin səhmdarlarının nəzərinə

06 iyul 2020-ci il tarixdə saat 15:00-da “Bank of Baku” Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının Ümumi Yığıncağının növbəti iclası keçiriləcək. Ünvan: Bankın Baş İdarəsi, Bakı AZ1069, Atatürk prospekti, 42. Telefon: 447-00-55.

İclasın gündəliyi bildirişlə birgə səhmdarlara göndərilib. Gündəlik üzrə materialları göstərilən ünvandan əldə etmək olar.

К сведению акционеров ОАО “BANK OF BAKU”

06 июля 2020-го года в 15:00 состоится очередное заседание Общего Собрания Акционеров Открытого Акционерного Общества “Bank of Baku”. Адрес: Головной Офис Банка, Баку A31069, проспект Ататюрка, 42. Телефон: 447-00-55.

Повестка заседания и уведомление высланы акционерам. Материалы по повестке можно получить по указанному адресу.

*İdarə Heyəti*

## BİLDİRİŞ

Azərbaycan Respublikası Baş Prokurorluğu texniki dəstək xidmətlərinin, avtomobil təmiri xidmətlərinin və tərcümə xidmətlərinin satın alınması üzrə təkliflər sorğusu proseduru həyata keçirir.

Prosedur 22 may 2020-ci il saat 18:00-a kimi 3 gün müddətində keçiriləcəkdir.

Əlaqələndirici şəxs: İmran Mikayılov, telefon: 492-93-79

*Tender komissiyası*

## BİLDİRİŞ

“Azərişıq”ASC-nin Tender komissiyası tərəfindən 22.01.2020-ci il tarixdə 1 fazalı SMS tipli sayğacların və 11.03.2020-ci il tarixdə müxtəlif növ sayğacların satın alınması məqsədilə elan verilmiş açıq tenderlərin maliyyələşdirilməsi dayandırıldığı üçün Tender komissiyasının qərarı ilə tenderin davamından imtina olunur.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən “Təhsil müəssisələrinin təmir-tikintisi üçün layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması” üzrə 13 may 2020-ci il tarixdə keçirilmiş elektron açıq tenderdə LOT-1 üzrə “Ay Konsaltinq Ltd” MMC, LOT-2, LOT-5, LOT-7, LOT-10 və LOT-11 üzrə “SOSİAL-İNKİŞAF LAYİHƏ” MMC, LOT-3 üzrə “Azərdövlətsənayelayihə” DLİ, LOT-4 üzrə “Azkommunlayihə” KLİ, LOT-6 və LOT-9 üzrə “HH ARCHİTECTS” MMC, LOT-8 üzrə “FENİKS-AA” MMC qalib elan edilmişdir.

Qalib təşkilatlarla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetinin 13.03.2020-ci il tarixli sayında dərc edilmiş Bakı şəhərində və regionlarda (şəhər, qəsəbə və kəndlərdə) yerləşən inzibati və poçt şöbəsi binalarında cari təmir işlərinin satın alınması prosedurunun qalibi “Tələt” firması müəyyən edilmişdir.

“Azərpoçt” MMC və “Tələt” firması arasında 19.05.2020-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisinin rəhbərliyi, deputatlar, Parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Aparatın sabiq əməkdaşı

**ÇİNGİZ BÜLBÜL OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Bakı şəhər 4 saylı Vəkil Bürosunun kollektivi iş yoldaşları vəkil

**FƏRZƏLİ QURBAN OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Tələbə yoldaşları Ramiz İbrahimov, Hüseynağa Əlixanov, Zülfüqar Niftiyev, Vahid Alıyev, Vahid Quliyev, Səfər Hüseynov, Rauf Əliyev, Əlisoltan Əhmədov, Zeynəb Dünyamalıyeva, Meybulla Məcidov, Bəsirət Quliyev, Hikmət Bağırov və Rafiq Hümbətov

**FƏRZƏLİ QURBAN OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzova anası

**FATMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğluna qardaşı

**ÇİNGİZ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Elçin Sultanov Bəyəli Əliyevə əzizi

**RAHİB MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7526
Sifariş 1270
Qiymәti 40 qəpik